**“İnternational” BOKT QSC**

31 dekabr 2020-ci il tarixinə

Beynəlxalq Maliyyə Hesabatı Standartlarına
Uyğun Maliyyə Hesabatları və
Müstəqil Auditorun Hesabatı

## MÜNDƏRİCAT

Maliyyə Hesabatlarının hazırlanması və təsdiq edilməsi ilə bağlı rəhbərliyin məsuliyyətinin bəyanı ........... 3
Müstəqil Auditorun Hesabatı .......... 4-5

MALİYYƏ HESABATLARI

Maliyyə Vəziyyəti haqqında Hesabat .......... 6
Mənfəət və ya Zərər və Digər Məcmu Gəlir haqqında Hesabat .......... 7
Kapitalda Dəyişikliklər haqqında Hesabat .......... 8
Pul Vəsaitlərinin Hərəkəti haqqında Hesabat .......... 9

Maliyyə Hesabatları üzrə Qeydlər .......... 10-46

## 1. Giriş

***Təşkilat və onun fəaliyyəti***

"İnternational" BOKT QSC ("Təşkilat") 2013-cü ildə təsisçilər tərəfindən ənənəvi bankçılıq sistemi vasitəsi ilə kredit əldə etmək imkanı olmayan fərdi sahibkarlara davamlı kredit xidməti göstərmək məqsədi ilə təsis edilmişdir. Təşkilat fiziki şəxslərə kredit verməklə onların fəaliyyətlərinin böyüməsi və iqtisadi vəziyyətlərinin yaxşılaşdırılması yolu ilə Azərbaycan iqtisadiyyatının inkişafına köməklik göstərir.

Təşkilat 26 yanvar 2013-cü il tarixində Azərbaycan Respublikası Vergilər Nazirliyi tərəfindən "İnternational" BOKT QSC adı ilə qeydiyyatdan keçirilmişdir. Təşkilat 7 oktyabr 2013-cü il tarixindən Azərbaycan Respublikası Mərkəzi Bankı ("ARMB") tərəfindən verilmiş 21 may 2013-cü il tarixli BKT-12 nömrəli lisenziyası əsasında fəaliyyət göstərir.

Təşkilatın hüquqi ünvanı aşağıdakı kimidir:

Bakı şəhəri Nərimanov rayonu, M.K.Atatürk prospekti

Təşkilat bütünlüklə təsisçiyə məxsusdur.

| Təsisçi | 31 dekabr 2020, % | 31 dekabr 2019, % |
|---|---|---|
| Həsənov Rifat Vaqif | 100% | 100% |

## 2. Təşkilatın Əməliyyat Mühiti

Təşkilat fəaliyyətini əsasən Azərbaycan Respublikasında həyata keçirir və nəticədə, Azərbaycanın iqtisadi və maliyyə bazarlarının inkişaf etməkdə olan bazar xüsusiyyətlərinə məruz qalır.

Neft ixrac edən bir ölkə kimi və neftin dövlət büdcəsinin həcmi, eləcə də dəyəri etibarı ilə əsas paya sahib olduğu üçün Azərbaycan iqtisadiyyatı neftin dəyərindən əhəmiyyətli dərəcədə aslıdır. Bu səbəbdən sözügedən sahənin qiymətlərində yaranan fərqlər iqtisadiyyat üzərində böyük təsirə malikdir və neftin dəyərindəki kəskin dəyişikliklər valyuta dəyərdəndüşməsi, iqtisadiyyat və sənaye sahələrinin inkişafında ləngimələr, həmçinin pul vəsaitlərinin dövriyyəsində yaranan qeyri-sabitlik kimi bu və ya digər makro-iqtisadi faktorların mövcudluğuna gətirib çıxarır.

2014-cü ilin iyun ayının ortalarından etibarən neftin qiymətində qəfil enmə müşahidə olunmağa başladı və neft sahəsindəki gəlirlərin, dolayısı ilə illik büdcə gəlirlərinin azalması, neft istehsalatının aşağı enməsi və bu sahədə aparılan əməliyyatların dayandırılması ilə nəticələndi.

Qlobal neft qiymətlərinin aşağı səviyyədə olması, həmçinin manatın 2015-ci ildəki ikili devalvasiyası iş mühitindəki qeyri-müəyyənliyin səviyyəsini son illərdə daha da artırdı.

2017-ci ilin 12 yanvar tarixindən, Azərbaycan Respublikasının Mərkəzi Bankı üzən məzənnə sisteminə sərbəst keçid imkanı üçün kommersiya banklarına tətbiq etdiyi 4% məzənnə dəhlizini ləğv etdi, 2018-ci il ərzində isə manatın dəyəri sabitləşməyə başladı.

2019-cu ildə ARMB-nin İdarə Heyəti faiz dəhlizinin parametrlərini 8 dəfə nəzərdən keçirdi. Ölkədə uçot dərəcəsi tədricən 9,75%-dən 7,5%-ə, faiz dəhlizinin yuxarı həddi 11,75%-dən 9,25%-ə, aşağı həddi isə 7,75%-dən 5,75%-ə endirildi.

2019-cu ildə Azərbaycanda minimum əmək haqqı və pensiya ilk dəfə yaşayış minimumunu üstələdi. 2020-ci ildə isə minimum əmək haqqında heç bir dəyişiklik olmadı. Ölkə prezidentinin müvafiq Sərəncamla 2020-ci ilin 1 yanvar tarixinə 2019-cu il üzrə Dövlət Statistika Komitəsi tərəfindən müəyyən edilən orta aylıq nominal əməkhaqqının illik artım tempinə uyğun olaraq bütün növ əmək pensiyalarının sığorta hissəsi indeksləşdirilərək 16,6 faiz artırıldı. Artım sığorta prinsipi ilə pensiya alan bütün pensiyaçıların, yəni 1 milyon 120 minə yaxın insanın pensiyasına şamil olundu.

30 yanvar 2020-ci il tarixində Ümumdünya Səhiyyə Təşkilatı koronavirus (COVID-19) infeksiyasının yayılmasını "ictimai səhiyyə sahəsində beynəlxalq əhəmiyyət kəsb edən fövqəladə vəziyyət" elan etdi. 2020-ci ilin birinci yarısında qlobal iqtisadiyyata koronavirus pandemiyasının yayılması öz mənfi təsirini göstərdi.

## 2. Təşkilatın Əməliyyat Mühiti (Davamı)

2020-ci ilin iyun-iyul aylarına doğru bir çox ölkə pandemiyanın yayılmasının azaldığına dair göstəricilər nümayiş etdirməyə başlasa da, dünyada pandemiyanın zirvəsi 2020-ci ilin iyun-iyul aylarında baş verdi və nəticədə məhdudiyyətlə bağlı tədbirləri daha da sərtləşdi. Qapanmalar və karantin tədbirləri pərakəndə satış, nəqliyyat, səyahət, iaşə, otel, əyləncə və digər bir çox müəssisənin bağlanması ilə nəticələndi. Beynəlxalq ticarət də əhəmiyyətli dərəcədə azaldı. Eyni zamanda neft qiymətləri ciddi şəkildə dəyər itirdi, lakin dövrün sonunda qiymətlər nisbətən stabilləşməyə başladı. Həyata keçirilən tədbirlər yeni koronavirus hadisələrinin tədricən azalmasına səbəb oldu və 2020-ci ilin avqust ayına qədər Azərbaycan Respublikası hökuməti daxil olmaqla bir çox hökumətlər məhdudiyyətləri azaltmağa başladı. 2020-ci ilin dekabr ayında pandemiya ilə bağlı məhdudiyyətlərin yenidən sərtləşdiyi müşahidə olundu. Dünya və ölkə üzrə maliyyə və əmtəə bazarlarında qeyri-sabitlik artmaqdadır.

Rəhbərlik makro-iqtisadi amillərin gözlənilən dəyişikliklərinin Cəmiyyətin əməliyyatları üzərində təsirini dəqiq qiymətləndirmək və yarana biləcək nəticələrlə bağlı hər hansı bir ölçü götürmək iqtidarında deyil və mövcud şəraitdə Cəmiyyətin fəaliyyətinin davamlılığını və inkişafını təmin etmək üçün bütün lazımi tədbirlərin görüldüyünü hesab edir.

## 3. Əsas Uçot Prinsiplərinin Xülasəsi

Maliyyə hesabatlarının hazırlanmasında qəbul edilən əsas uçot prinsipləri aşağıda qeyd edilmişdir. Bu prinsiplər istisna hallar göstərilmədiyi təqdirdə, bütün illərə davamlı olaraq tətbiq olunur.

### Hesabatların Tərtib Edilməsinin Əsas Prinsipləri

***Uyğunluq prinsipi***

Hazırki maliyyə hesabatları fəaliyyətin fasiləsizliyi və Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası tərəfindən hazırlanan 31 dekabr 2020-ci il tarixinə qüvvədə olan Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun şəkildə hazırlanmışdır.

***Təqdimatın əsasları***

Maliyyə hesabatları aşağıda göstərilmiş mühasibat uçotu prinsiplərində başqa cür qeyd olunmayıbsa (məsələn, müəyyən maliyyə alətləri ədalətli dəyər prinsipi ilə ölçülür) tarixi dəyər prinsipinə əsasən hazırlanmışdır.

***Funksional və hesabat valyutası***

Təşkilatın funksional valyutası və bu maliyyə hesabatlarının tərtib olunduğu valyuta Azərbaycan Respublikasının milli valyutası olan Azərbaycan Manatıdır ("AZN").

### Maliyyə alətləri – ilkin tanınma

***Tanınmanın tarixi***

Maliyyə aktivləri və öhdəlikləri, müştərilərə verilən kreditlər və avanslar, o cümlədən müştəri hesabları istisna olmaqla maliyyə aktivləri və öhdəlikləri ilkin olaraq satış tarixində, yəni Təşkilat müqavilənin şərtlərinə əsasən tərəflərdən birinə çevrilidyi tarixdə tanınır. Buna müntəzəm satışlar daxildir: bazarda tənzimləmə və konvensiyalarla müəyyən olunmuş zaman çərçivəsində aktivlərin çatdırılması, tələb olunan maliyyə aktivlərinin alınması və satılması. Müştərilərə verilən kreditlər və avanslar bu vəsaitlər müştərinin hesabına köçürüldüyü zaman tanınır. Təşkilat müştərilərin balanslarını vəsaitlər Təşkilata köçürüldüyü zaman tanıyır.

***Maliyyə alətlərinin ilkin ölçülməsi***

Maliyyə alətlərinin ilkin tanınması zamanı təsnifləşdirilən alətlərin idarə olunması biznes planı və onların müqavilə şərtlərindən asılıdır. Maliyyə alətləri ilkin olaraq onların ədalətli dəyərində ölçülür, maliyyə aktivləri və maliyyə öhdəliklərinin mənfəət və ya zərər hesabına ədalətli dəyərlə qeyd olunması halından başqa digər əməliyyat məsrəfləri bu məbləğə əlavə edilir və ya çıxılır. Maliyyə alətlərinin ilkin tanınması zamanı onun ədalətli dəyəri onun əməliyyat qiymətindən fərqlənirsə Təşkilat 1-ci günün mənfəət və zərər uçotunu aşağıda təsvir olunduğu şəkildə aparır.

**3. Əsas Uçot Prinsiplərinin Xülasəsi (Davamı)**

***1-ci gün mənfəət və zərər uçotu***

Maliyyə alətinin əməliyyat qiyməti, onun yalnız bazar əməliyyatlarında müşahidə oluna bilən daxilolmalarına əsaslanan qiymətləndirmə metodu əsasında təyin olunmuş ədalətli dəyərindən və ilkin tanınma zamanı yaranan ədalətli dəyərindən fərqli olduğu zaman, Təşkilat əməliyyat qiyməti və ədalətli dəyər arasındakı fərqi xalis satış gəlirlərinə tanıyır. Ədalətli dəyərin bəzi daxilolmaların müşahidə oluna bilmədiyi modelə əsaslandığı hallarda əməliyyat qiyməti və ədalətli dəyər arasındakı fərq təxirə salınır və yalnız daxilolmaların müşahidəsi mümkün oluqda və ya alətlərin tanınması dayandırıldıqda mənfəət və zərərdə tanınır.

***Maliyyə aktivləri və öhdəliklərinin ölçülmə kateqoriyaları***

Təşkilat öz maliyyə aktivlərini aşağıdakı meyarlarla aktivlərin idarə olunmasının biznes modeli və aktivlərin müqavilə şərtləri əsasında təsnifləşdirir:

- Amortizasiya olunmuş dəyərlə
- Digər məcmu gəlirlər hesabında ədalətli dəyərlə
- Mənfəət və ya zərər hesabına ədalətli dəyərlə

Təşkilat öz derivativlərini və satış portfelini mənfəət zərər hesabına ədalətli dəyərlə təsnifləşdirir və ölçür. Təşkilat qeyd olunan yanaşma uyğunsuzluqları əhəmiyyətli dərəcədə azaltdığı və ya aradan qaldırdığı halda maliyyə alətlərini mənfəət və ya zərər hesabına ədalətli dəyərlə tanıya bilər.

Kredit müqavilələri və qarantiyalar istisna olmaqla, derivativ, satış üçün saxlanılan və ya ədalətli dəyər təyinatı tətbiq olunan maliyyə öhdəlikləri mənfəət və ya zərər hesabına ədalətli dəyərlə və ya amortizasiya olunmuş dəyərdə ölçülür.

**Maliyyə aktivləri və öhdəlikləri**

**Amortizasiya olunmuş dəyərlə tanınan təşkilatlarla debitor borcları, Müştərilərə verilən kreditlər və avanslar, Maliyyə investisiyaları**

Təşkilat yalnız aşağıdakı hər iki şərt ödənərsə *Bank hesabları* və *Müştərilərə verilən kreditlər və avanslar* və digər maliyyə investisiyalarını amortizasiya olunmuş dəyərlə ölçür:

- Maliyyə aktivləri müqavilə əsasında pul vəsaitləri hərəkətinin toplanması məqsədi daşıyan biznes modelin tərkibindədir
- Maliyyə aktivlərinin müqavilə şərtləri ödənilməli olan əsas məbləğin qalıq dəyərinə hesablanmış faiz və əsas məbləğlərin geri ödənişindən yaranan pul vəsaitlərinin daxilolmalarına gətirib çıxarır.

Bu şərtlərin detalları aşağıda təsvir olunub.

**Biznes modelin qimətləndirilməsi**

Təşkilat onun biznes məqsədlərinə çatmaq üçün maliyyə aktivləri qruplarınının idarə olunmasını ən uyğun şəkildə əks etdirilməsi səviyyəsində özünün biznes modelini təyin edir.
Təşkilatın biznes modeli maliyyə alətlərinə görə tək-tək deyil, cəmlənmiş portfellərin daha yüksək səviyyələrinə görə qiymətləndirilir və aşağıdakı müşahidə oluna bilən faktorlara əsaslanır:

- Biznes modelin performansı və bu biznes model daxilində saxlanılan maliyyə aktivləri necə qiymətləndirilir və müəssisənin əsas idarə heyətinə təqdim olunur
- Biznes modelin performansına (və bu biznes model daxilində saxlanılan maliyyə aktivlərinə) təsir edən risklər və xüsusilə də, bu riskərin idarə olunması üsulu
- Müəssisənin menecerlərinə müavinətlər necə verilir (məsələn, kompensasiya aktivlərin ədalətli dəyərinə və yaxud müqavilə üzrə əldə edilmiş pul vəsaitlərinin hərəkətinə əsaslanır)
- Satışların gözlənilən tezliyi, dəyər və vaxtı da Təşkilatın qiymətləndirilməsi baxımından mühim aspektlərdən hesab edilir.

Biznes model qiymətləndirməsi “ən pis hal” və “stress vəziyyəti” halları nəzərə alınmadan gözlənilən qrafikaya əsaslanır.

**3. Əsas Uçot Prinsiplərinin Xülasəsi (Davamı)**

İlkin tanınmadan sonra pul vəsaitlərinin hərəkəti Təşkilatın gözləntilərindən fərqli bir şəkildə həyata keçirilirsə bu halda Təşkilat biznes modelində qalan maliyyə aktivlərinin təsnifatını dəyişmir, lakin yeni başlayan və ya yeni satın alınan maliyyə aktivlərini qiymətləndirərkən bu məlumatları da daxil edir.

**Yalnız əsas məbləğin və faizlərinin ödənişi (YƏMFÖ)**

Təşkilat təsnifat prossesinin ikinci mərhələsində maliyyə müqaviləsi şərtlərinin test meyarlarına uyğun olub olmadığını müəyyən edir.

Test mərhələsinin əsas vacib prinsipi maliyyə aktivinin ədalətli dəyərinin ilkin mərhələdə tanınması və maliyyə aktivinin qüvvədə olduğu müddət ərzində dəyişməsi (məsələn, hər hansı bir təkrar ödəmə və ya premium/endirim amortizasiyası) kimi müəyyənləşdirilmişdir.

Kreditin verilməsi zamanı ən mühim maraq amillərindən biri pulun zaman dəyərinin və kredit riskinin nəzərə alınmasıdır. YƏMFÖ qiymətləndirməsi aparmaq üçün Təşkilat mühakimə, maliyyə aktivlərinin hansı məzənnədə istifadə edilməsi və faiz dərəcəsinin müəyyənləşdirilməsi kimi əlaqəli faktorların nəzərə alınmasını tətbiq edir.

Bundan fərqli olaraq pul vəsaitlərinin hərəkəti risklərində və ya dəyişkənliyə məruz qalmasını izah edən müqavilə şərtlərinə əsasən pul vəsaitlərinin axını yalnız ödənilmiş əsas və faiz məbləğlərindən yaranmır.
Bu kimi hallarda maliyyə aktivlərinin mənfəət və ya zərər hesabatında ədalətli dəyərlə (MZHƏD) ölçülməsi tələb olunur.

**Derivativlər mənfəət zərər hesabına görə ədalətli dəyərdə qeydə alınır.**

Derivativlər aşağıda qeyd edilmiş üç xüsusiyyəti özündə birləşdirən Maliyyə alətidir.

- Dəyəri müəyyən bir faiz dərəcəsinə, maliyyə aləti qiymətinə, əmtəə qiymətinə, xarici valyuta məzənnəsinə, qiymət indeksi və dərəcələrinə, kredit reytinqi və kredit indeksinə və yaxud qeyri maliyyə dəyişkənliyi halında təmin edilən digər parametrlərə uyğun dəyişir, bu hal müqavilənin digər tərəfi üçün spesifik deyil.
- Bazar şərtlərindəki dəyişikliklərə eyni cavabın alınması gözlənilən daha kiçik oxşar müqavilələr üçün ilkin xalis investisiya tələb edilmir.
- Bu kimi hallar gələcək tarixdə həll olunur.

Təşkilat qarşı tərəflərlə derivativ əməliyyatlara daxil olur. Bunlara faiz dərəcəsi svopları, kredit şərtlərinin dəyişdirilməsi, qarşılıqlı valyuta svopları, ilkin valyuta müqavilələri, xarici valyutalar və səhmlər daxildir. Derivativ ədalətli dəyərdə qeyd edilir və ədalətli dəyər göstəricisi müsbət olduğu halda aktivlərdə, mənfi olduğu halda isə öhdəliklərdə tanınır. Bu cür derivativlərin xüsusi dəyəri və ədalətli dəyəri ayrı ayrılqda açıqlanır.

Derivativlərin ədalətli dəyərindəki dəyişikliklər hedcinq mühasibat uçotu tətbiq edilmədiyi hallarda xalis ticarət gəlirinə daxil edilir.

***Daxili derivativlər***

Daxili derivativlər özündə kənar derivativləri də birləşdirməklə kombinə maliyyə alətinin tək derivativlərə bənzər bir şəkildə fərqləndiyini təsvir edən hibrid alətin tərkib hissəsidir. Daxili derivativlər pul vəsaitlərinin müəyyən bir faiz dərəcəsinə uyğun olaraq dəyişdirilməli olan müqavilə ilə başqa cür tələb olunacaq pul vəsaitlərinin hərəkətlərinin bir hissəsi və ya hamısı, maliyyə aləti qiyməti əmtəə qiyməti, valyuta məzənnəsi, qiymətlər və ya dərəcələr indeksləri, kredit reytinqi və ya kredit endeksi və ya digər dəyişənlərə səbəb olur. Bir maliyyə alətinə əlavə edilmiş, lakin həmin alətdən asılı olaraq müqavilə ilə ötürülən və ya həmin alətdən fərqli bir qarşı tərəfə malik olan bir derivativ əlavə törəmə deyil, ayrıca bir maliyyə aləti hesab olunur.

Maliyyə aktivlərində yerləşdirilən derivativlər, borc öhdəlikləri və qeyri-maliyy\ə tərəfdaş əlaqələri ayrı-ayrı törəmə alətləri kimi qiymətləndirilmiş və ədalətli dəyərində qeyd edilmişdir. Əgər bir derivativ anlayışına (yuxarıda müəyyən edilmiş şəkildə) cavab verərlərsə, onların iqtisadi xüsusiyyətləri və riskləri əsas müqavilənin şərtləri ilə sıx əlaqədar deyildir və əsas müqavilənin özü ticarət üçün yaxud mənfəət və ya zərər hesabatında ədalətli dəyərlə təyin edilməsi üçün nəzərdə tutulmamışdır. Əsas müqavilədən ayrılmış daxili derivativlər ticarət portfelində ədalətli dəyərdə əks etdirilən dəyişikliklərlə təqdim edilir.

Təşkilat bu şəkildə maliyyə öhdəlikləri və qeyri-maliyyə müqavilələrinə daxil edilmiş derivativlərin uçotunu aparır. Maliyyə aktivləri biznes modelinə və YƏMFÖ qiymətləndirmələrinə əsasən təsnifləşdirilir.

**3. Əsas Uçot Prinsiplərinin Xülasəsi (Davamı)**

**Digər məcmu gəlirlər hesabatına ədalətli dəyərlə tanınan kapital alətləri**

Təşkilatlar, nadir hallarda ilkin tanınma zamanı maliyyə alətlərini 32 saylı MUBS Maliyyə alətləri: "Təqdimat standartına uyğun gəlirsə və ticari məqsədli saxlanılmırsa digər məcmu gəlirlər hesabına ədalətli dəyərlə tanıyır. Bəzi kapital investisiyalarını, digər məcmu gəlirlər hesabına ədalətli dəyərlə kapital alətləri kimi sinifləndirməyi seçirlər. Bu kapital alətlərində gəlir ve zərərlər heç zaman mənfəət və ya zərər hesabatına geri tanına bilməz. Dividendlər, ödəmə haqqı təşkil edildiyində, təşkilatların xərclərinin bir qisminin kompensasiya edilərək gəlir əldə etmələri kimi hallar- məsələn ,digər məcmu gəlirlərdə qeyd olunan mənfəət istisna olmaqla, eynilə digər fəaliyyət gəlirləri kimi, mənfəət və ya zərər hesabında öz əksini tapır. Digər məcmu gəlirlərdə ədalətli dəyərlə tanınan kapital alətləri, dəyərsizləşmə qiymətləndirilməsindən kənar tutulmaqdadır.

**Alınmış Borclar və digər borc götürülmüş məbləğlər**

İlkin tanınmadam sonra, alınmış borclar və borc götürülmüş məbləğlər, amortizasiya edilmiş xərclər kimi ölçülür. Amortizasiya edilmiş xərclər, effektiv faiz dərəcəsinin daxili hissəsi olan maliyyə xərcləri, hər hansı bir endirim, və ya premiya fondları nəzərə alınaraq hesablanmaqdadır. Həm kapital, həm də öhdəlik komponentlərini özündə cəmləşdirən mürəkkəb maliyyə alətləri dərc olunma tarixində ayrılır.

Təşkilatlar, qeyri-törəmə alətlərinə mühasibat əməliyyatlarını yerinə yetirərkən, ilk öncə bu alətlərin mürəkkəb olub olmadığını müəyyən edir və daha sonra bu alətin hər bir komponentini ayrı ayrılıqda, maliyyə aktivi, öhdəliyi və ya kapitalı kimi, MUBS 32 əsasında, təsnifləşdirir. Geri dönüşdürülə bilən alətlərin öhdəlik və kapital komponentlərinin təsnifi, bəzi səhmdarlar üçün bir variantın istifadəsi baxımından iqtisadi cəhətdən sərfəli görünsədə, geri dönüşüm əməliyyatının tətbiqi zamanı dəyişiklik səbəbiylə yenidən nəzərdən keçirilə bilməz. Mürəkkəb maliyyə alətinin ilkin sərmayəsinin kapital və öhdəlik komponentlərinə ötürülməsi zamanı, kapital, alətin bütün həqiqi dəyərinin qalıq məbləğlərinin ixracından sonrakı halı olaraq dəyərləndirilir və bu məbləğ öhdəliklər üçün ayrı bir şəkildə qeyd olunur. Hər hansı bir mürəkkəb maliyyə alətinə bağlı olan törəmə tərkibli alətlərin dəyəri, kapitaldan fərqli olaraq, öhdəlik komponentlərinə daxil olmaqdadır.

Təşkilatlar kapital və öhdəlik bölgüsünü müəyyən etdikdən sonra, sonrakı mərhələ olaraq, öhdəliklərin ayrı ayrılıqda nəzərə alınması vacib olan törəmələrə malik olub olmadığını müəyyənləşdirməlidir.

**Mənfəət və ya zərər hesabına ədalətli dəyərlə tanınan maliyyə aktivləri və öhdəlikləri**

Bu kateqoriyaya aid olan maliyyə aktivləri və öhdəlikləri, kommersiya məqsədli olmayan və ilkin mühasibat prosesi zamanı rəhbərlik tərəfindən müəyyən olunan və ya icbari şəkildə MUBS 9 nəzdində həqiqi dəyəri ölçülə bilən kateqoriyalardır.

Rəhbərlik ilkin uçot sonrası yalnız aşağıda göstərilən kriteriyalardan biri yerinə yetirildiyində mənfəət və ya zərər hesabına ədalətli dəyərlə tanınan bir alət müəyyən edir. Bu cür təyinatlar hər bir alət üzrə ayrıca həyata keçirilir:

- Müvafiq təyinat mühasibat uçotunda fərqli tanınma halında yarana biləcək uyğunsuzluqları aradan qaldırır və ya əhəmiyyətli dərəcədə azaldırsa və ya
- Borclar risklərin idarə edilməsi siyasəti və ya investisiya strategiyasına əsasən idarə olunan və onların fəaliyyəti ədalətli dəyər əsasında qiymətləndirilmiş maliyyə öhdəlikləri qrupunun bir hissəsidirsə və ya
- Bir və ya daha çox derivativi olan öhdəliklər, əksər hallarda istənilən pul vəsaitlərinin hərəkəti əhəmiyyətli dərəcədə dəyişməyincə müqavilə ilə və ya bənzər bir alətlə əlaqədar derivativlərin ayrılmasının qadağan edildiyi hesab edilirsə

Mənfəət və ya zərər hesabına ədalətli dəyərlə tanınan maliyyə aktivləri və maliyyə öhdəlikləri ədalətli dəyərdə maliyyə vəziyyəti haqqında hesabatda əks etdirilir.

Ədalətli dəyərdəki dəyişikliklər Təşkilatın öz kredit riskindəki dəyişikliklər səbəbindən öhdəliklərin ədalətli dəyərində hərəkətlər istisna olmaqla, mənfəət və zərər hesabatında qeydə alınır. Ədalətli dəyərdəki dəyişikliklər digər məcmu gəlirlər vasitəsilə öz kredit ehtiyatında qeydə alınır və mənfəət və zərərə geri qaytarılmır. Mənfəət və ya zərər hesabatında əks etdirilən alətlər üzrə əldə edilmiş və ya hesablanmış faizlər, faiz gəliri və ya faiz xərci ilə, hər hansı bir endirim / mükafat və alət əməliyyatının xərclərini alətin ayrılmaz bir hissəsi kimi nəzərə almaqla və effektiv faiz dərəcəsindən istifadə etməklə hesablanır.

**3. Əsas Uçot Prinsiplərinin Xülasəsi (Davamı)**

Səhmdar alətlərinin payı üzrə dividend gəlirləri, ödəniş hüququ təsis edildikdə, digər əməliyyat gəlirləri kimi mənfəət və ya zərərdə qeydə alınır.

**Maliyyə zəmanətləri, akkreditivlər və istifadə olunmayan kredit öhdəliyi**

Təşkilat maliyyə zəmanətləri, akkreditiv və borc öhdəliklərini dərc edir. Maliyyə zəmanətləri ilkin olaraq maliyyə hesabatlarında tanınır (Müddəalar daxilində) .Hər bir zəmanət üzrə Təşkilatın öhdəliyi ilkin tanınan məbləğin üstündə hesablanır və mənfəət və ya zərər hesabatında yığılmış amortizasiya ayırmaları çıxılır. Əldə edilmiş mükafat zəmanət müddəti boyunca düz xətt əsasında net gəliri və komisiya gəliri formasında mənfəət və ya zərər hesabatında tanınır.

***Maliyyə aktivlərinin və öhdəliklərinin tanınmasının dayandırılması***

**Şərtlərin və şəraitlərin əhəmiyyətli dərəcədə dəyişdirilməsinə görə tanınmanın dayandırılması**

Yeni tanınmış kreditlər GKZ ölçmə məqsədləri üçün yeni kredit dəyərsizləşmiş hesab edilənə qədər 1-ci Mərhələdə təsnifləşdirilir. Təşkilat müştəriyə kredit verilməsininin dayandırılıb-dayandırılmamasını qiymətləndirərkən, digərləri arasında aşağıdakı faktları nəzərdə saxlayır:

- Kreditin valyutasının dəyişməsi
- Kapital xüsusiyyətlərinin təqdimatı
- Qarşı tərəfdəki dəyişiklik
- Dəyişikliklərin bu cür tanınması müqabilində modifikasiya alətləri artıq YƏMFÖ meyarlarına cavab verməyəcəyinin məlum olması

Əgər dəyişiklik nəğd pul vəsaitlərinin axışında əhəmiyətli dərəcədə fərqliliyə səbəb olmursa, dəyişiklik tanınmanın dayandırılmasına gətirib çıxara bilməz. Orijinal ehtimal olunan faiz dərəcələrində diskontlaşdırılmış pul vəsaitlərinin hərəkətindəki dəyişikliyə əsasən, Təşkilat, hər hansı bir dəyərdən düşmə (dəyərsizləşmə) halları qeyd edilmədiyi təqdirdə, bununla bağlı olaraq mənfəət və zərər hesabına dəyişikliklərin təsirini uçota alır.

***Əsaslı dəyişikliklərdən başqa tanımanın dayandırılması halları***

**Maliyyə aktivləri**

Maliyyə aktivindən pul vəsaitlərinin hərəkətini almaq hüququ başa çatdıqda maliyyə aktivinin (və ya mümkün olduqda, maliyyə aktivinin bir hissəsi və ya oxşar maliyyə aktivlərinin bir hissəsi) tanınması dayandırılır.

Təşkilat maliyyə aktivini yalnız və yalnız aşağıdakı hallarda köçürə bilər :

- Təşkilat maliyyə aktivlərindən pul vəsaitlərinin axınını əldə etmək üçün müqavilə hüquqlarını köçürmüşdür,

Və ya,

- Pul vəsaitlərinin hərəkəti hüququnu saxlayır, lakin "ötürmə" razılaşması ilə üçüncü tərəfə maddi gecikmə olmadan alınan pul vəsaitlərinin hamısını tam ödəmək öhdəliyi götürür ki, bu ödəniş qaydaları Təşkilatın maliyyə aktivi üzrə pul vəsaitlərinin axınını ("əsas aktiv") almaq üzrə müqavilə hüquqlarını saxladığı əməliyyatlardır, lakin həmin pul vəsaitlərinin hərəkəti bir və ya bir neçə müəssisəyə ("son alıcılara”), aşağıdakı üç şərt yerinə yetirildikdə ödənilir:
- Təşkilat, alınmış məbləğin tam ödənilməsi və faiz dərəcələrinə uyğun faiz məbləğləri ilə qısamüddətli avanslar istisna olmaqla, orijinal aktivdən ekvivalent məbləğlərin yığımını həyata keçirmədiyi halda, alıcılara məbləğləri ödəmək öhdəliyi yoxdursa
- Təşkilat, potensial alıcılara təminat olaraq təqdim etdiyi aktivdən başqa, hər hansı bir digər orijinal aktivi sata və ya girov qoya bilməzsə
- Təşkilat potensial alıcılar adına toplanan pul vəsaitlərini əhəmiyyətli gecikmə olmadan təhvil vermək məcburiyyətindədirsə

Əlavə olaraq, Təşkilat pul və pul ekvivalentlərində investisiyalar istisna olmaqla, yığım tarixi və potensial alıcılara lazım olan pul köçürmə tarixləri arasında olan dövr ərzində qazanılmış faizlər də daxil olmaqla, bu cür pul axınlarını yenidən investisiya etmək hüququna malik deyildir. Transfer yalnız tanınmanın dayandırılması hallarına uyğunlaşdırılır, həmçinin:

**3. Əsas Uçot Prinsiplərinin Xülasəsi (Davamı)**

- Təşkilat aktivin bütün risklərini və mükafatlarını əhəmiyyətli dərəcədə ötürmüşdür

Və ya,

- Təşkilat aktivin bütün risklərini və mükafatlarını əhəmiyyətli dərəcədə nə ötürmüş nə də saxlamamışdır, lakin aktiv üzrə nəzarətin ötürülməsini təmin etmişdir.

Təşkilat, bütün əsaslı riskləri və mükafatlarını əhəmiyyətli dərəcədə köçürmədikdə və ya əlində saxlamadıqda, yalnız aktivin nəzarətini özündə saxlayıbsa, aktiv yalnız Təşkilatın davamlı təsirini əhəmiyyətlilik dərəcəsi ilə tanınır və bu halda Təşkilat həmçinin əlaqəli öhdəliyi tanımalıdır. Köçürülmüş aktiv və əlaqəli öhdəlik Təşkilatın əlində saxladığı hüquq və öhdəlikləri əks etdirən əsaslarla ölçülür.

Köçürülmüş aktiv üzərində təminat şəkli alan davamlı müdaxilə və təsir gücü, aktivi orijinal balans dəyərinin altında və Təşkilatın ödəməsi tələb oluna biləcək makimum məbləğlə ölçülür. Davamlı təsir köçürülmüş aktiv üzrə yazılı və ya satın alınan bir variantın (və ya hər ikisinin) formasını alırsa, Təşkilatın aktivi yenidən satın alma prosesində ödəməsi lazım gələn dəyərdə ölçülür. Ədalətli dəyərlə ölçülmüş bir aktiv üzrə yazılı təklif seçimi olması halında, müəssisənin davam edən təsirinin əhatəsi, köçürülmüş aktivin ədalətli dəyəri və seçmə əməliyyat qiymətinin aşağı olması şərtlərilə məhdudlaşır.

**Maliyyə öhdəlikləri**

Maliyyə öhdəliklərinin tanınması öhdəliklərin sıfırlanması, ləğv edilməsi ya da vaxtının bitməsi hallarında dayandırılır.
Mövcud maliyyə öhdəliyi eyni kredit verəndən əhəmiyyətli dərəcədə fərqli şərtlər ilə əvəz edildikdə və ya mövcud öhdəliyin şərtləri əhəmiyyətli dərəcədə dəyişdirildikdə, belə bir mübadilə və ya dəyişiklik öz öhdəliklərinin tanınmasının dayandırılması və yeni öhdəliklərin tanınması kimi qəbul edilir. Orijinal maliyyə öhdəliklərinin balans dəyəri və ödənilməli ödənişlər arasındakı fərq mənfəət və zərərdə tanınır.

***Maliyyə aktivlərinin dəyərdən düşməsi***

**Gözlənilən Kredit Zərərlərinin tanınması prinsiplərinə ümumi baxış**

Hər ikisi maliyyə alətlərinin əsas portfelinin xarakterindən asılı olaraq ya fərdi əsasda ya da kollektiv əsasda hesablanır. Təşkilat hər hesabat dövrünün sonunda, ilkin tanımadan sonra maliyyə alətlərinin kredit riskinin əhəmiyyətli dərəcədə artıb-artmadığını, maliyyə alətlərinin qalan faydalı ömrü ərzində dəyərsizləşmə riskindəki dəyişikliyi diqqətə alaraq qiymətləndirmə aparmaq siyasətini həyata keçirmişdir.

Yuxarıdakı prosesə əsaslanaraq Təşkilat kreditlərini aşağıda açıqlandığı şəkildə Mərhələ 1, Mərhələ 2, Mərhələ 3 və dəyərsizləşmiş (AYKD) kreditlər kimi qruplaşdırır.

Mərhələ 1: Kreditlərin ilkin tanınması, Təşkilat 12 aylıq GKZ-ə əsaslanan ehtiyyat məbləğini tanıyır. Mərhələ 1 kateqoriyasında qruplaşdırılan kreditlər həmçinin kredit riskinin artaraq Mərhələ 2-dən yenidən təsnifləşdirilmiş kreditləri də özündə cəmləşdirir.

Mərhələ 2: Borc verildikdən sonra kredit riskində əhəmiyyətli artım baş verdikdə, Təşkilat kreditin gözlənilən faydalı ömrü ərzində yarana biləcək zərərlər üçün ehtiyat yaradır. Mərhələ 2 kreditləri əlavə olaraq, kredit riskinin artdığı və kreditin Mərhələ 3-dən etibarən yenidən təsnifləşdirildiyi təsislərədə ehtiva edir.

Mərhələ 3: Əhəmiyyətli dərəcədə dəyərsizləşmə müşahidə olunan kreditlər. Təşkilat kreditin gözlənilən faydalı ömrü ərzində yarana biləcək zərərlər üçün ehtiyat yaradır.

AYKD: Alınan və ya yaradılan kredit aktivləri üçün ilkin tanımada dəyərsizləşmə müşahidə olunan maliyyə aktivləridir. AYKD aktivləri orjinal tanınmalar sırasında ədalətli dəyərdə qeydə alınır və faiz gəlirinin sonrakı tanınmaları effektiv faiz dərəcəsinə əsaslanır. GKZ yalnız ehtimal edilən dəyərsizləşmədə növbəti dəyişiklik olduğunda tanınır və ya genişləndirilir.

Təşkilatın geri ödənilməmiş kedit məbləğlərilə bağlı bərpa olunmasına dair gözləntisi qalmadığı hallarda bütünlüklə və ya hissəvi maliyyə aktivinin ümumi balans dəyəri azaldılır. Bu, maliyyə aktivinin tanımasının (qismən) dayandırılması hesab olunur.

**3. Əsas Uçot Prinsiplərinin Xülasəsi (Davamı)**

**Gözlənilən kredit zərərlərinin hesablanması**

Təşkilatlar effektiv faiz dərəcəsinə qədər azalmış qısamüddətli nağd pul daxilolmalarını ölçmək üçün dörd ehtimal yönümlü ssenariyə dayanaraq gözlənilən kredit zərərlərini hesablayırlar. Qısamüddətli nağd pul azalmaları müqaviləyə uyğun olaraq müəssisəyə ödənilməli pul axınları ilə müəssisənin ümumilikdə əldə etməyi gözlədiyi məbləğ arasındakı fərqdir.

Gözlənilən kredit zərərlərinin hesablanmasında əsas elementlər aşağıdakılardır:

- *Defolt ehtimalı-* (Öhdəliyin yerinə yetirilməməsi ehtimalı) verilmiş zaman kəsiyində ödənilməmə ehtimalının təxmini hesablanmasıdır.

Defolt ehtimalı bəzən yalnız dəyərləndirilən zaman müddətində baş verə bilər, lakin, ehiyatlar portfel daxilində davamlı olaraq saxlanılmış ola da bilər.

- *Defolt ehtimalında açıqlanma-* hesabat tarixindən sonra əsas məbləğin və faizin müqavilə ilə müəyyən edilmiş və ya hər hansı digər formada təyin edilən geri ödəmə şərtləri daxil olmaqla, təklif edilən güzəştlərdən mümkün azalmaların və gecikmiş ödəmələrə yığılmış faizlərin nəzərə alınaraq gələcək tarixdəki dofoltun açıqlama qeydlərində yaradacağı dəyişikliklərin əvvəlcədən təxmin edilməsidir.
- *Defolt ehtimalında mümkün zərərlər-* Verilmiş müddət ərzində defolt hadisəsinin baş verməsindən yaranan zərərlərin əvvəlcədən təxmin edilməsidir. Bu daha çox müqavilə üzrə məbləğlər ilə borc verənin qoyulmuş girovların realizasiyası da daxil olmaqla almağı gözlədiyi məbləğ arasındakı fərqə əsaslanır.

Gözlənilən kredit itkilərini əvvəlcədən dəyərləndirərkən dörd müxtəlif ssenariləri nəzərə alınır (əsas vəziyyət, qalxış, yumuşaq düşüş (enmə 1), və daha kəskin enmə (enmə2). Bunların hər biri müxtəlif defolt ehtimalı, defolt vəziyyətində açıqlama və defolt ehtimalında mümkün zərərlərlə əlaqəlidir. Vəziyyətdən asılı olaraq, ödənilməyən borcların ödənilmə ehtimalının və girovun dəyərinin və ya aktivin satılmasından əldə ediləcək məbləğin də nəzərə alınaraq geri qaytarılmasına dair müxtəlif ssenarilər də daxil edilə bilər.

Kredit kartları və digər dövriyyə vəsaitləri istisna olmaqla kredit zərərlərində maksimum dövr Təşkilat hüquqi cəhətdən daha erkən müddətə tanımalı olduğu hallar istisna olmaqla maliyyə alətinin müqavilə müddəti ilə müəyyən edilir.

Dəyərsizləşmə zərərləri və azadolmalar maliyyə aktivinin balans dəyərinə müəyyən edilmiş alınmamış borc öhdəliyinə görə yaradılan gözlənilən kredit zərərləri üzrə ehtiyatlardan formalaşan modifikasiya zərərləri və ya gəlirlərindən ayrılıqda balansda və açıqlama qeydlərində öz əksini tapır. Gözlənilən kredit zərəri metodunun mexanizmlərini aşağıdakı kimi izah etmək olar:

- 1-ci mərhələ: Təşkilat hesabat tarixindən sonrakı 12 aylıq müddət ərzində maliyyə alətinin mümkün ödənilməmə ehtimalının nəticəsi kimi istifadə müddəti üzrə gözlənilən kredit zərərinin 12 aylıq nisbətini hesablayır. Təşkilat hesabat tarixindən sonrakı növbəti 12 aylıq müddət üçün gözlənilən ödənilməmə hadisəsinə ehtiyat məbləğini hesablayır.

Bu gözlənilən 12 aylıq ödənilməmə ehtimalları effektiv faiz dərəcəsinə yaxınlaşana qədər azaldıb, ödənilməmə hadisəsində gözlənilən itkilərin miqdarında vurularaq ödənilməmə hadisəsində açqlama qeydlərinin proqnozlaşdırılmasına istifadə olunur. Hər dörd ssenari üçün bu hesablamalar yuxarıda izah edildiyi kimidir.

- 2-ci mərhələ: Borcun kredit riski originaldan əhəmiyyətli dərəcədə artdıqda Təşkilat istifadə müddəti üzrə gözlənilən kredit zərəri ehtiyatı yaradır. Mexanizmlər ssenarilər də daxil olmaqla yuxarıda izah edilən digər ssenarilərlə oxşarlıq təşkil etsə də ödənilməmənin ehtimalı və ödənilməmə hadisəsində zərərlərin miqdarı maliyyə alətinin istifadə müddətinə əsasən proqnozlaşdırılır. Ehtimal olunan nağd pul ehtiyatları orijinal effektiv faiz dərəcəsinə yaxın məbləğə qədər azaldılır.
- 3-cü mərhələ: Təşkilat kredit dəyərsizləşməsi nəzərə alınan borclara gözlənilən istifadə müddəti üzrə kredit zərərləri hesablayır. Bu metod 2-ci mərhələdə verilən ödənilməmə ehtimalı 100% müəyyən edilmiş aktivlərlə oxşardır.
- Alınmış və ya original kredit dəyərsizləşməsi müəyyən edilən aktivlər ilkin tanınmada kredit dəyərsizləşməsi hesablanan aktivlərdir. təşkilatlar ilkin tanınmadan istifadə müddəti üzrə gözlənilən kredit zərərlərinə yalnızca yığılmış dəyişiklikləri dörd ehtimal yönümlü ssenarilərə əsaslanaraq tanıyır.

**3. Əsas Uçot Prinsiplərinin Xülasəsi (Davamı)**

- Borc öhdəlikləri və akkreditivlər

Alınmamış borc öhdəliyinə istifadə müddəti üzrə gözlədilən kredit zərərlərini proqnozlaşdırarkən Təşkilat borc öhdəliyinin gözlənilən hissəsinin istifadə müddəti bitdikdən sonra alacağını nəzərdə tutur. Gözlənilən kredit zərəri, dörd ssenarinin ehtimal ağırlığına əsaslanan nağd pulun çəkildiyi təqdirdə, gözlənilən çatışmazlıqların bugünkü dəyərinə əsaslanır. Gözlənilən nağd pul çatışmazlığı, kredit üzrə gözlənilən effektiv faiz dərəcəsinə yaxınlaşanda təxirə salınır.

Həm kredit, həm də alınmamış bir öhdəlik daxil olan kredit kartları və dövriyyə vəsaitləri üçün gözlənilən kredit zərərləri kreditlə birlikdə hesablanır və təqdim olunur. Kredit öhdəlikləri və akkreditivlər üçün gözlənilən kredit itkiləri *ehtiyat* məbləği içərisində tanınır.

- Qarantiyalar

Hər bir zəmanət üzrə Təşkilatın öhdəliyi, gəlir hesabatında tanınmış məcmu amortizasiya məbləğinin azaldılması və gözlənilən kredit itkiləri ehtimalının daha yüksək olması ilə ölçülür. Bu məqsədlə, Təşkilat, sahibinin kredit zərərinə görə geri ödəyəcəyi məbləğin riskə uyğun effektiv faiz dərəcəsi tətbiq edilmiş azalmaların hazırki dəyərini əvvəlcədən təqribi hesablayır. Hesablama ehtimal ağırlıqlı dörd ssenari ilə aparılır. Maliyyə təminatı müqavilələri ilə bağlı gözlənilən kredit itkiləri *ehtiyatlar* daxilində tanınır.

**Digər məcmu gəlirlər içərisində balans dəyəri ilə ölçülən borc alətləri**

Digər məcmu gəlirlər içərisində balans dəyərində ölçülmüş borc alətlərinin gözlənilən kredit zərərləri bu maliyyə aktivlərinin qalıq dəyərini maliyyə vəziyyəti haqqında hesabatda azaltmır.

Bunun əvəzində, aktivlərin amortizasiya olunmuş dəyərlə ölçülməsi halında yaranacaq ehtiyata bərabər olan məbləğ, digər məcmu gəlirlərdə mənfəət və ya zərərə müvafiq yığılmış dəyərsizləşmə məbləği olaraq tanınır. Digər məcmu gəlirlərdə yığılmış zərərlər, aktivlərin silinməsi zamanı mənfəət və zərər hesabına qaytarılır**.**

**Alınmış və ya ilkin tanınmadan kredit dəyərsizləşməsi müəyyən olunmuş maliyyə aktivləri**

Alınmış və ya ilkin tanınmdad kredit dəyərsizləşməsi müəyyən olunmuş maliyyə aktivləri üçün Təşkilat ilkin tanınmadakı zərər ehtiyatlarına yalnız yığılmış dəyişiklikləri tanıyır.

**Gələcəklə bağlı proqnoz xarakterli məlumatlar**

Gözlənilən kredit riski modellərində, təşkilatlar aşağıdakı kimi geniş iqtisadi informasiyalara əsaslanmaqdadır:

- ÜDM artımı
- İşsizlik dərəcəsi
- Mərkəzi bankın faiz dərəcəsi
- Təsərrüfatı qiymətləri indeksi

Gözlənilən kredit zərərlərinin hesablanması üçün istifadə olunan məlumatlar və modellər, maliyyə hesabatları tarixində bazarın bütün xüsusiyyətlərini əks etdirə bilməz. Belə fərqlər əhəmiyyətli dərəcədə vacib olduqda bunu əks etdirmək üçün, keyfiyyətə uyğun bəzən müvəqqəti olaraq düzəlişlər edilir.

Yuxarıda göstərilən məlumatlar yalnız məsələyə aydınlıq gətirmək məqsədilə seçilmiş ümumi iqtisadi göstəricilərdir. Praktikada əmtəə qiymətləri inflyasiya dərəcələri, valyuta məzənnələri və dövlət büdcəsinin kəsirləri kimi digər göstəricilər də istifadə oluna bilər.

**Girov qiymətləndirməsi**

Təşkilat maliyyə aktivləri üzərində kredit risklərini azaldılması üçün mümkün olduğu qədər girovdan istifadə etməyə çalışır. Təşkilat zəmanətlər, daşınmaz əmlak, debitor borcları, ehtiyatlar, digər qeyri-maliyyə aktivləri və xalis müqavilələr formasında kredit alətləri kimi müxtəlif formalarda mövcud ola bilər. Girov təmin edilmədiyi halda, bu Təşkilatın maliyyə vəziyyəti haqqında hesabatında qeyd edilmir.

Lakin, girovun balans dəyəri gözlənilən kredit zərərlərinin hesablanmasına təsir göstərir. Adətən, ən az, kreditin verildiyi anda və üç ayda bir dəfə yenidən qiymətləndirilir. Bununla yanaşı, bəzi girovlar, məsələn, marja tələblərinə aid pul və ya qiymətli kağızlar gündəlik qiymətləndirilir.

**3. Əsas Uçot Prinsiplərinin Xülasəsi (Davamı)**

Mümkün olduğu təqdirdə, Təşkilat təminat kimi saxlanılan maliyyə aktivlərini qiymətləndirmək üçün aktiv bazar məlumatlarından istifadə edir. Sabit bazar qiymətinə sahib olmayan digər maliyyə aktivləri modellərdən istifadə etməklə qiymətləndirilir. Daşınmaz əmlak kimi qeyri-maliyyə girovları ipoteka brokerləri kimi üçüncü tərəflərin verdiyi məlumatlara görə və ya mənzil qiymət indeksləri əsasında qiymətləndirilir.

**Girovun ötürülməsi**

Təşkilatın siyasəti müsadirə edilmiş girovların Təşkilatın daxili əməliyyatları üçün ən yaxşı şəkildə istifadə edilə biləcəyini və ya satılmalı olduğunu müəyyən etməkdir. Daxili əməliyyatlar üçün yararlı olacağı təsbit edilmiş girovlar üçüncü şəxslərə ötürüləcəyi dəyərdən aşağı və ya orijinal təmin edilmiş aktivin balans dəyərində hesablanır. Satışın daha əlverişli olduğu müəyyənləşdirilmiş girovlar, satış üçün saxlanılan aktivlərdə, balans dəyərində (əgər aktivlər olduqda) və ya balans dəyərindən qaytarılma tarixində satış üçün çəkiləcək xərclər çıxılmaqla Təşkilatın daxili siyasətinə uyğun olaraq tanınır.

Təşkilat normal fəaliyyəti dövründə pərakəndə portfelində əmlak və ya digər aktivləri fiziki olaraq üçüncü şəxslərə ötürmür, adətən auksionda borc öhdəliyini ödəmək üçün xarici agentləri cəlb edir.

Hər hansı əlavə dəyər müştərilərə / borcalanlara qaytarılır. Bu praktikanın nəticəsi olaraq hüquqi ötürülmə prosesinə məruz qalmış yaşayış obyektləri balansda qeyd edilmir.

**Silinmələr**

Maliyyə aktivləri yalnız bərpa edilməsi mümkün olmadığı halda təsdiq edildiyi zaman qismən və ya tam olaraq silinir. Silinəcək məbləğ yığılmış zərər ehtiyatından çox olduqda, fərq əvvəlcə ümumi balans dəyərinə tətbiq edilən ehtiyata əlavə olunur. Hər hansı bir sonrakı bərpa kredit zərərləri üzrə xərclərə hesablanır.

MHBS 7R.35L müəssisələrdən dövr ərzində silinmiş və hələ də icra fəaliyyətinə məruz qalan maliyyə aktivləri üzrə qüvvədə olan məbləği açıqlamağı tələb edir. Bu tələb, Təşkilatın aktivi bərpa etmək üçün heç bir əsaslı gözləntiləri olmadığı təqdirdə və əlavə prosedurları icra etməkdən imtina etdikdə silməsinə imkan verən MHBS 9.5.4.4 ilə ziddiyyət təşkil edir.

***Ədalətli dəyər*** - qiymətləndirmə tarixində bazar iştirakçıları arasında aparılan əməliyyatlarda aktivin satılması zamanı alınan və ya öhdəliyin köçürülməsi zamanı ödənilən qiymətdir. Aktivin və ya öhdəliyin ədalətli dəyərini müəyyən edərkən Təşkilat mümkün dərəcədə bazarda müşahidə edilə bilən informasiyalardan istifadə edir. Əgər aktivin və ya öhdəliyin ədalətli dəyəri müəyyən oluna bilmirsə, Təşkilat müşahidə edilə bilən məlumatların istifadəsini maksimumlaşdıran və müşahidə edilə biməyən məlumatların istifadəsini minimumlaşdıran (oxşar əməliyyatlar üçün qiymətləri, diskontlaşdırılmış pul vəsaitləri hərəkətinin təhlilini və ya emitentin xüsusi hallarda opsiyon qiymət qoyma modelini əks etdirən müqayisəli bazar yanaşmasının istifadəsi ) qiymətləndirmə mexanizmlərindən istifadə edir. İstifadə olunan məlumatlar bazar iştirakçılarının nəzərə aldığı aktiv/öhdəliyin xarakteristikalarına uyğundur.

Ədalətli dəyər qiymətləndirmə üçün məlumatların müşahidə edilə bilmə dərəcəsinə və bütünlüklə ədalətli dəyərin müəyyən olunmasında məlumatların əhəmiyyətinə əsaslanaraq müxtəlif iyerarxik kateqoriyalara bölünür:

- 1-ci səviyyə - ədalətli dəyər eyni aktivlər/öhdəliklərin aktiv bazardakı mövcud qiymətindən (dəyişdirilməmiş) əldə edilir.
- 2-ci səviyyə - ədalətli dəyər 1-ci səviyyədə göstərilən mövcud qiymətlərdən fərqli olaraq aktiv və ya öhdəlik üçün birbaşa (məs., qiymətlər) və ya dolayı yolla ( qiymətlərdən əldə olunan) müşahidə edilə bilən məlumatlardan əldə olunur.
- 3-cü səviyyə - ədalətli dəyər müşahidə edilən bazar məlumatlarına əsaslanmayan (müşahidə edilə bilinməyən məlumatlar ) aktiv və öhdəliklər üçün məlumatları özündə əks etdirən qiymətləndirmə mexanizmlərindən əldə olunur.

Ədalətli dəyər iyerarxiyasının səviyyələri arasındakı köçürmələr Təşkilat tərəfindən dəyişikliyin baş verdiyi hesabat dövrünün sonunda tanınır.

***Pul vəsaitləri və onların ekvivalentləri.*** Pul vəsaitləri və onların ekvivalentləri asanlıqla müəyyən nağd pul məbləğinə çevrilə bilən və dəyəri cüzi dəyişikliklərə məruz qalan maddələrdir. Pul vəsaitləri və onların ekvivalentlərinə ilkin ödəmə müddəti üç aydan az olan banklararası bütün depozitlər daxildir.

**3. Əsas Uçot Prinsiplərinin Xülasəsi (Davamı)**

Verilmə tarixində istifadəsi üç aydan çox müddətə məhdudlaşdırılmış vəsaitlər pul vəsaitləri və onların ekvivalentlərinə aid edilmir. Pul vəsaitləri və onların ekvivalentləri amortizasiya olunmuş maya dəyərində əks etdirilir.

***Müştərilərə verilmiş kreditlər və avanslar.*** Müştərilərə verilmiş kreditlər və avanslar təsbit edilmiş və ya müəyyən edilə bilən tarixlərdə qaytarılmaq şərtilə sərbəst surətdə alınıb satıla bilməyən qeyri-derivativ maliyyə alətləri ilə əlaqəsi olmayan debitor borclarının əldə edilməsi və ya yaradılması məqsədilə, Təşkilat tərəfindən müştərilərə avans şəklində nağd pul verildiyi zaman uçota alınır. Dəyərsizləşmiş maliyyə aktivləri ilə bağlı şərtlərə yenidən baxıldıqda, yenidən baxılmış şərtlər əvvəlki şərtlərdən əhəmiyyətli dərəcədə fərqlənərsə, yeni aktiv əvvəlcə ədalətli dəyərdə uçota alınır.

***Əmlak və avadanlıqlar.*** Əmlak və avadanlıqlar lazım olduqda yığılmış amortizasiyanı və dəyərsizləşmə üzrə ehtiyatı çıxmaqla, ilkin dəyərdə qeydə alınır.

Əmlak və avadanlıqların bütün digər növləri lazım olduqda yığılmış amortizasiyanı və dəyərsizləşmə üzrə zərəri çıxmaqla (əgər varsa), ilkin dəyərdə qeydə alınır.

Kiçik həcmli təmir və istismar xərcləri çəkildiyi zaman xərcə silinir. Əmlak və avadanlıqların əsas komponentlərinin əvəz edilməsi xərcləri kapitallaşdırılır və əvəz edilmiş hissələr balansdan silinir. Əmlak və avadanlıqlar dəyərsizləşdikdə, onlar əmlak və avadanlıqların istifadəsi nəticəsində əldə edilən dəyər ilə satış xərcləri çıxılmaqla ədalətli dəyərdən daha yüksək olan dəyərə silinir. Aktivin balans dəyərindəki azalma mənfəət və zərərə aid edilir. Aktivin istifadəsi nəticəsində əldə edilən dəyərin və ya satış xərcləri çıxılmaqla, onun ədalətli dəyərinin müəyyən edilməsi üçün istifadə edilən təxminlərdə dəyişiklik baş verdiyi təqdirdə əvvəlki dövrlərdə hər-hansı aktiv üçün qeydə alınmış dəyərsizləşmə üzrə zərərlər bərpa edilir.

Əmlak və avadanlıqların satışından yaranan gəlir və zərər, gəlir məbləği və balans dəyəri arasındakı fərq kimi müəyyən edilir və mənfəət və zərərdə əks etdirilir.

***Qeyri-maddi aktivlər.*** Təşkilatın digər qeyri-maddi aktivlərinə komputer proqramlarının daxildir. Qeyri-maddi aktivlər yalnızca dəyərinin uyğun olaraq qiymətləndirilə bildiyi və Təşkilata bu qeyri-maddi aktivlə bağlı gələcək iqtisadi səmərənin daxil olacağının ehtimal edildiyi təqdirdə tanınır. Ayrılıqda alınan qeyri-maddi aktivlər ilkin olaraq maya dəyərində tanınır.

Qeyr-maddi aktivlərin faydalı istifadə müddətinin məhdud və ya qeyri-məhdud olmasını qiymətləndirilir. Məhdud istifadə müddəti olan qeyri-maddi aktivlər faydalı istifadə müddəti dövründə amortizasiya olunur.

Məhdud istifadə müddəti olan qeyri-maddi aktivlər üçün faydalı istifadə müddəti və amortizasiya metodu ən azı hər maliyyə ilinin sonunda nəzərdən keçirilir.

Faydalı istifadə müddətindəki və ya aktivə xas olan gələcək iqtisadi səmərənin gözlənilən istifadəsindək dəyişikliklər sonradan mühasibat prinsiplərindəki dəyişiklik kimi nəzərə alınan amortizasiya dövrünün və metodologiyasının dəyişməsinə səbəb olur. Məhdud istifadə müddəti olan qeyri-maddi aktivlərin amortizasiya xərcləri mənfəət və zərər hesabatında ayrı maddə kimi göstərilir.

***Amortizasiya.*** Bina və avadanlıqlar üzrə amortizasiya düz xətt metoduna, yəni əsas vəsaitlərin aşağıda göstərilən təxmini faydalı xidmət müddəti ərzində aktivlərin ilkin dəyərini və ya yenidən qiymətləndirilmiş dəyərini onların qalıq dəyərinədək azaltmaqla hesablanır:

| | 2020-ci il üzrə | 2019-cu il üzrə |
|---|---|---|
| Mebel və avadanlıqlar | 4 il | 4 il |
| Kompüter və avadanlıqlar | 4 il | 4 il |
| Nəqliyyat vasitələri | 4 il | 4 il |
| Qeyri-maddi aktivlər | 10 il | 10 il |

Aktivin artıq köhnəldiyi və istismar müddəti başa çatdığı halda, satış üzrə təxmin edilən xərclər çıxılmaqla, Təşkilatın həmin aktivin satışı nəticəsində əldə edəcəyi təxmin edilən məbləğ aktivin qalıq dəyəridir. Təşkilat aktivi onun fiziki istismar müddətinin sonuna qədər istifadə edəcəyini gözlədikdə, aktivin qalıq dəyəri sıfra bərabər olur. Aktivlərin qalıq dəyərləri və faydalı xidmət müddətləri lazım olduqda hesabat dövrünün sonunda nəzərdən keçirilir və dəqiqləşdirilir.

**3. Əsas Uçot Prinsiplərinin Xülasəsi (Davamı)**

***Müddətli borc öhdəlikəri.*** Banklar və digər maliyyə institutlarına olan borclar, müxbir banklar tərəfindən Təşkilata nağd pul və ya digər aktivlər verildiyi andan qeydə alınır. Qeyri-törəmə maliyyə öhdəlikləri amortizasiya olunmuş maya dəyərində qeydə alınır. Borcverən verdiyi borcları geri aldıqda, həmin borc öhdəlikləri maliyyə vəziyyəti haqqında hesabatdan silinir və öhdəliyin balans dəyəri ilə ödənilmiş məbləğ arasındakı fərq borcun ödənilməsi üzrə yaranan gəlir və ya xərclərə daxil edilir.

***Nizamnamə kapitalı.*** Adi səhmlər və ixtiyari dividentli geri ödənilməyən imtiyazlı səhmlər hər ikisi xüsusi kapital kimi təsnifləşdirilir. Bilavasitə yeni səhmlərin buraxılışına aid olan xərclər xüsusi kapitalda çıxarış kimi göstərilmişdir. Buraxılmış səhmlərin nominal dəyərindən artıq qazanılmış hər hansı məbləğ xüsusi kapitalda emissiya gəliri kimi qeyd olunur.

***Mənfəət vergisi.*** Mənfəət vergisi hazırkı maliyyə hesabatlarında Azərbaycan Respublikasının qüvvədə olan və ya hesabat tarixinə qüvvəyə minmiş Azərbaycan qanunvericiliyinə uyğun olaraq hesablanmışdır. Mənfəət vergisi xərci cari və təxirə salınmış mənfəət vergisindən ibarətdir və bu və ya digər dövrdə vergi təsiri bilavasitə digər məcmu gəlirlərdə və ya kapitalda qeydə alınan əməliyyatlar istisna olmaqla, mənfəət və zərərdə qeydə alınır.

Cari mənfəət vergisi, cari və əvvəlki dövrlər üzrə vergiyə cəlb edilən mənfəət və ya zərər ilə əlaqədar vergi orqanlarına ödəniləcək və ya onlardan geri alınacaq məbləği təşkil edir. Vergiyə cəlb edilən mənfəət və ya zərər maliyyə hesabatlarının müvafiq vergi bəyannamələrinin təqdim olunmasından əvvəl təsdiqləndiyi halda, təxmini göstəricilərə əsasən hesablanır. Mənfəət vergisindən başqa digər vergilər inzibati və digər əməliyyat xərcləri kimi qeydə alınır.

Təxirə salınmış mənfəət vergisi öhdəlik metodundan istifadə etməklə, aktiv və öhdəliklərin vergi bazası və maliyyə hesabatlarının hazırlanması məqsədləri üçün onların balans dəyəri arasında yaranan keçmiş illərin vergi zərəri və bütün müvəqqəti fərqlər üçün hesablanır. İlkin uçot zamanı istisna hal olaraq, əgər əməliyyat maliyyə mənfəəti və vergiyə cəlb edilən mənfəətə təsir göstərmirsə, aktiv və öhdəliyin ilkin qeydə alınması nəticəsində yaranan müvəqqəti fərqlər üzrə təxirə salınmış vergi hesablanmır (biznes birləşməsi halları istisna olmaqla).

Təxirə salınmış vergi qalıqları, qüvvədə olan və ya hesabat dövrünün sonunda qüvvəyə minmiş vergi dərəcələrinə əsasən müvəqqəti fərqlərin qaytarılacağı və ya keçmiş illərdən yığılmış vergi zərərlərinin istifadə ediləcəyi dövrdə tətbiq edilməli vergi dərəcələrindən istifadə etməklə hesablanır. Gəlirdən çıxılan müvəqqəti fərqlər üzrə təxirə salınmış vergi aktivləri və keçmiş illərin vergi zərərləri o zaman hesablanır ki, bu çıxılmaların realizasiya oluna bilməsi üçün gələcəkdə kifayət qədər vergiyə cəlb ediləcək mənfəətin mövcudluğu ehtimal edilsin.

***Qeyd:*** Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 102.1.22 - maddəsinə uyğun olaraq fiziki şəxslərin investisiya qiymətli kağızları üzrə ödənilən dividendlər 2016-cı ilin fevral ayından etibarən7-il müddətinə vergidən azaddır.

***Gəlir və xərclərin uçotu.*** Faiz gəlirlərinin və xərclərinin uçotu mənfəətdə və ya zərərdə effektiv faiz üsulu ilə aparılır.

Kreditlərin rəsmiləşdirilməsi haqları, kreditlərin xidmət olunması haqları və kreditin ümumi mənfəətliliyini təmin edən sair haqlar, müvafiq əməliyyat xərcləri ilə birlikdə təxirə salınaraq effektiv faiz üsulu ilə maliyyə aktivin təxmin edilən faydalı istifadə müddəti üzrə faiz gəlirlərində amortizasiya olunur. Sair haqlar, komissiya haqları və sair gəlir və xərc maddələri mənfəət və ya zərərdə müvafiq xidmətlər göstərildiyi zaman əks olunur.

**Faiz gəlirlərinin tanınması**

***Effektiv faiz dərəcəsi metodu***

Amortizasiya edilmiş maya dəyərilə, eləcə də mənfəət və ya zərər hesabına ədalətli dəyərlə tanınan bütün maliyyə alətləri üçün faiz dərəcələri effektiv faiz dərəcəsi (EFD) metodundan istifadə etməklə tətbiq olunur.

Faiz hesablanan maliyyə aktivlərinin faiz gəlirləri MHBS 9 əsasında digər məcmu gəlirlər hesabına ədalətli dəyərlə ölçülür, buna oxşar olaraq MUBS 39 əsasında satıla bilən və ödəniş tarixinədək saxlanılan kateqoriyaları üzrə qruplaşdırılan və faiz hesablanan maliyyə aktivləri də EFD metodundan istifadə edilməkələ təyin olunur. EFD maliyyə alətinin gözlənilən istifadə müddəti ərzində və ya daha qısa müddətə, maliyyə alətinin xalis qalıq dəyərinə qədər ehtimal olunan gələcək kassa daxilolmalarına tabe tutulan faizdir.

EFD (həmçinin, aktivin amortizasiya olunmuş dəyəri) satın alma zamanı hər hansı endirim və ya premium, EFD-nin daxili hissəsi olan haqq və dəyərlər nəzərə alınmaqla hesablanır. Təşkilat kreditin gözlənilən istifadə müddəti ərzində sabit geri qayıtma faizinin ən yaxşı təxminini istifadə etməklə faiz gəlirlərini tanıyır.

**3. Əsas Uçot Prinsiplərinin Xülasəsi (Davamı)**

Buna görə də Təşkilat müxtəlif mərhələlərdə tətbiq olunan fərqli faiz dərəcələrinin və məhsulun digər xarakteristikalarının istifadə dövrünün (ön ödəmələr, faiz cərimələri və ödənişləri daxil olmaqla) təsirlərini nəzərə alır.

Əgər maliyyə aktivlərində pul vəsaitlərinin axını ilə əlaqədar olan gözləntilər kredit riskindən başqa hər hansı bir səbəbə görə yenidən nəzərdən keçirilərsə düzəliş faiz gəlirlərində artma və azalma ilə birlikdə balans hesabatına aktivin qalıq dəyərində müsbət və ya mənfi düzəliş olaraq qeyd olunur.
İcbari olaraq mənfəət və ya zərər hesabına ədalətli dəyərlə ölçülməsi tələb olunan bütün satış aktivləri və maliyyə aktivlərinin faiz gəlirləri, müqavilə faiz dərəcələri, xalis satış gəlirlərində və maliyyə aktivlərində xalis gəlir/(zərər) mənfəət və zərər vasitəsilə ədalətli dəyər istifadə olunmaqlda tanınır.

***Xarici valyuta əməliyyatları.*** Təşkilatın funksional valyutası onun fəaliyyət göstərdiyi əsas iqtisadi mühitin valyutası hesab edilir. Təşkilatın funksional və hesabat valyutası Azərbaycan Respublikasının milli valyutası olan Azərbaycan Manatıdır (“AZN”).

Monetar aktiv və öhdəliklər, ARMB-nin müvafiq hesabat tarixinə qüvvədə olan rəsmi valyuta məzənnəsinə əsasən müəssisənin funksional valyutasına çevrilir. Bu cür əməliyyatlar üzrə hesablaşmaların həyata keçirilməsi və ARMB-nin ilin sonuna olan rəsmi valyuta məzənnəsi ilə monetar aktiv və öhdəliklərin funksional valyutaya çevrilməsi nəticəsində yaranan müsbət və mənfi məzənnə fərqləri mənfəət və zərər hesabatında qeydə alınır.

İlin sonuna qüvvədə olan valyuta məzənnəsi ilə yerli valyutaya çevrilmə qeyri-monetar maddələrə, o cümlədən pay alətlərinə tətbiq edilmir. Məzənnə dəyişikliklərinin pay qiymətli kağızların ədalətli dəyərinə təsiri ədalətli dəyər üzrə yenidən qiymətləndirmə nəticəsində gəlir və ya xərclərin bir hissəsi kimi qeydə alınır.

31 dekabr 2020-ci il tarixinə xarici valyuta qalıqlarının çevrilməsində istifadə olunan əsas valyuta məzənnələri: 1 ABŞ Dolları = 1.7000 AZN (31 dekabr 2019-cu il tarixinə: 1 ABŞ Dolları = 1.7000 AZN).

***Əvəzləşdirmə.*** Maliyyə aktiv və öhdəliklərinin əvəzləşdirilməsi və xalis məbləğin maliyyə vəziyyəti haqqında hesabata daxil edilməsi, qeydə alınmış məbləğlərin əvəzləşdirilməsi üçün qanunvericiliklə müəyyən edilmiş hüquq, eləcə də əvəzləşdirməni aparmaq və ya eyni zamanda aktivi realizasiya edərək öhdəliyi ödəmək niyyəti mövcud olduğu hallarda həyata keçirilə bilər.

**Borc qiymətli kağızları.** Buraxılmış borc qiymətli kağızlarına sadə veksellər, istiqrazlar, depozit sertifikatları və “İnternational” BOKT QSC tərəfindən yerləşdirilmiş borc iltizamları aiddir.
Əgər “İnternational” BOKT QSC öz borc qiymətli kağızını satın alırsa, bu öhdəlik maliyyə vəziyyəti haqqında hesabatından silinir və ödənilən vəsaitlə öhdəliyin qalıq dəyəri arasında olan fərq mənfəət və zərər hesablarında müvafiq olaraq öhdəliklərin vaxtından tez icra edilməsinin nəticəsi kimi təqdim edilir.

***İşçilərə sərf olunan xərclər və müvafiq ayırmalar.*** Əmək haqları, məvaciblər, Azərbaycan Respublikası Dövlət Pensiya və Sosial Müdafiə Fonduna ödənişlər, məzuniyyət və bülletenlər üzrə illik ödənişlər, mükafatlar və pul şəklində olmayan imtiyazlar Təşkilatın işçiləri tərəfindən müvafiq xidmətlər göstərildikdə hesablanır.

***Dividendlər***

Təşkilatın dividendləri elan edib ödəmək imkanları Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilmiş qaydada tənzimlənir.

***16 saylı MHBS***

16 saylı MHBS ilk növbədə icarəyə götürənin uçotuna təsir göstərir və demək olar ki, bütün lizinqlərin maliyyə vəziyyəti haqqında hesabatda tanınmasını tələb edir. Standart əməliyyat və maliyyə lizinqləri arasındakı mövcud fərqi aradan qaldırır, aktivlərin (icarəyə götürülmüş əmlakdan istifadə hüququ) və lizinq müqavilələrinə əsasən ödənilməsi nəzərdə tutulan öhdəliklərin tanınmasını tələb edən vahid mühasibatlıq modelini təqdim edir. Standart ilkin tətbiq tarixində icarə müddəti 12 ay ərzində tamamlanan və alış seçimi ehtiva etməyən ("qısamüddətli icarələr") icarə müqavilələrinə, eləcə də aktivinin dəyəri az olan icarə müqavilələrinə ("aşağı dəyərli aktivlər") istisna hüququ təklif edir.

Eyni zamanda dəyişiklik mənfəət və ya zərər haqqında hesabata da öz təsirini göstərmişdir, buna səbəb lizinq üçün ümumi xərcin ilk illərdə daha yüksək sonraki dövrlərdə isə daha az görünməsidir.

Bununla yanaşı, əməliyyat xərcləri aktivdən istifadə hüququnun köhnəlmə xərcləri və lizinq öhdəlikləri üzrə faiz xərcləri ilə əvəzləşdirilir, bu da əsas ölçü meyarı EBITDA-nın (faiz,vergi, köhnəlmə və amortizasiyadan öncəki gəlir) dəyişməsi ilə nəticələnir.

**3. Əsas Uçot Prinsiplərinin Xülasəsi (Davamı)**

Lizinq öhdəliyinin əsas hissəsi üçün nağd ödənişlər maliyyə fəaliyyətləri daxilində təsnif edildiyindən əməliyyat fəaliyyətinə yönəlmiş pul vəsaitlərinin hərəkəti daha yüksək olur. Ödənişlərin yalnız faizi əks etdirən hissəsi əməliyyat fəaliyyətinə yönəlmiş pul vəsaitlərinin hərəkəti kimi təqdim olunmağa davam etdirilə bilər.

Standart Təşkilatın icarəyə verən qismində təmsil olduğu müqavilələrdə əhəmiyyətli dəyişikliyə səbəb olmayacaqdır. Yalnız lizinqin təyinatına dair yeni təlimatdan irəli gələrək müəyyən fərqlər yarana bilər.

16 saylı MHBS-a əsasən müqavilə ilə müəyyən edilmiş müddət ərzində ödənişlər müqabilində aktivdən istifadə hüququ nəzərdə tutulduğu təqdirdə lizinq müqaviləsi hesab edilir.

Təklif olunan istisna halları nəzərə alınaraq, qeyd olunan standartın qəbul edilməsi Təşkilatın maliyyə hesabatlarına təsir göstərməmişdir.

***23 saylı Şərh Mənfəət vergisi ilə bağlı qeyri-müəyyənlik***

Şərh vergi əməliyyatları zamanı 12 saylı MUBS "Gəlir Vergisi"-nin tətbiqinə təsir göstərən qeyri-müəyyənlik aşkar olunduqda mənfəət vergisinin uçotunu nəzərdən keçirir. Bu şərh 12 saylı MUBS-dan kənar vergilərə və ya yığımlara şamil edilmir və müəyyən vergi əməliyyatları ilə əlaqəli faiz və cərimələrə aid tələbləri özündə əks etdirmir. Bu təfsir xüsusi olaraq aşağıdakıları əhatə edir:

• Təşkilatın qeyri-müəyyən vergi yanaşmalarını ayrıca nəzərdən keçirib keçirməməsi
• Təşkilatın vergi orqanları tərəfindən vergi əməliyyatlarının araşdırılması barədə irəli sürdüyü fərziyyələr
• Təşkilatın vergiyə cəlb olunan mənfəətini (və yaxud vergi zərəri), vergi bazalarını, istifadə olunmamış vergi zərərlərini, vergi kreditlərini və dərəcələrinin necə müəyyənləşdirdiyi
• Təşkilatın faktlara və mövcud vəziyyətdəki dəyişikliklərə necə yanaşdığı. Təşkilat hər bir qeyri müəyyən vergi yanaşmasını ayrılıqda və ya bir neçə qeyri-müəyyən vergi yanaşması ilə birlikdə nəzərə alıb almayacağını müəyyənləşdirir və bu qeyri-müəyyənliyin həllini daha yaxşı tənzimləyən yanaşmadan istifadə edir.

Təşkilat mənfəət vergisi yanaşması üzrə qeyri-müəyyənliklərin aradan qaldırılmasında əhəmiyyətli mülahizələri tətbiq edir. Təşkilat mürəkkəb mühitdə fəaliyyət göstərdiyinə görə, qeyd edilən Şərhin maliyyə hesabatlarına təsir dərəcəsi Təşkilat tərəfindən qiymətləndirilir. Şərh qəbul edildikdən sonra Təşkilat, xüsusilə köçürmə qiymətləriylə bağlı qeyri-müəyyən vergi mövqelərinin mövcud olub olmadığını müəyyən edir. Müəssisə və törəmə şirkətlərin müxtəlif ölkələrdə vergi sənədlərinə köçürmə qiymətləri ilə əlaqədar xüsusi imtiyazlar şamil edilə bilər və eyni zamanda yerli vergi orqanları bu prosedurlara dəyişiklik edə bilər.
Təşkilat (o cümlədən törəmə müəssisələr) vergi uyğunluğuna və köçürmə əməliyyatlarına dair apardığı tədqiqata əsasən vergi qaydalarının yerli vergi orqanları tərəfindən qəbul olunduğuna qənaət edir. Şərh Təşkilatın maliyyə hesabatlarına əsaslı təsir göstərməmişdir.

***9 saylı MHBS –ə düzəlişlər – "Mənfi kompensasiyanı nəzərdə tutan qabaqcadan ödəmə növü"***

9 saylı MHBS-a əsasən borc aləti amortizasiya hesablanmış dəyərlə və ya digər məcmu gəlir vasitəsilə ədalətli dəyərlə o şərtlə qiymətləndirilə bilər ki, müqavilə ilə nəzərdə tutulan pul vəsaitlərinin hərəkəti "yalnız əsas məbləğin və faizin ödənilməsi" (YƏMFÖ) meyarına uyğun olsun və alət bu təsnifləşdirməyə müvafiq olan biznes modeli çərçivəsində saxlanılsın. 9 saylı MHBS-ə edilən düzəlişlər izah edir ki, müqavilənin vaxtından əvvəl ləğvinə səbəb olan hadisə və ya haldan və müqavilənin xitamına görə müvafiq kompensasiyanı hansı tərəfin ödəməsindən asılı olmayaraq maliyyə aktivi üzrə YƏMFÖ meyarı tətbiq olunur.
Bu dəyişikliklərin Təşkilatın maliyyə hesabatlarına heç bir təsiri yoxdur.

***12 saylı MUBS Mənfəət Vergisi***

Düzəlişlər izah edir ki, dividendlərin mənfəət vergisi nəticələri mülkiyyətçilərə paylamalara deyil, bölüşdürülə bilən mənfəəti yaradan keçmiş əməliyyatlar və ya hadisələrlə daha çox bağlıdır. Belə ki, müəssisə dividendlərin vergi nəticələrini həmin keçmiş əməliyyat və hadisələri ilkin olaraq harada tanıdığından asılı olaraq mənfəət və ya zərərdə, digər məcmu gəlirdə və ya kapitalda tanıyır. Təşkilatın hazırkı təcrübəsinin bu düzəlişlərə uyğun olduğu nəzərə alınaraq, Təşkilatın maliyyə hesabatlarına təsiri gözlənilmir.

## 3. Əsas Uçot Prinsiplərinin Xülasəsi (Davamı)

***23 saylı MUBS Borclar üzrə məsrəflər***

Düzəlişlər aydınlaşdırır ki, müəssisə, ilkin olaraq müəyyənləşdirilmiş aktivin inkişaf etdirilməsi üçün götürülən borclara aktivin məqsədli istifadə və ya satılmağa hazırlanması üçün zəruri olan bütün fəaliyyətlər başa çatdıqdan sonra ümumi borcların bir hissəsi kimi yanaşır. Müəssisələr bu düzəlişləri tətbiq etdiyi ilk illik hesabat dövründə və ya sonrasında çəkilmiş borc xərclərinə şamil edir.

Təşkilatın hazırkı təcrübəsinin bu düzəlişlərə uyğun olduğu nəzərə alınaraq, Təşkilatın maliyyə hesabatlarına təsiri gözlənilmir.

***Plana düzəliş, azalma və ya hesablaşma - 19 saylı MUBS-a düzəlişlər***

19 saylı MUBS-a edilən düzəlişlər hesabat dövründə rəsmi plana düzəliş, azaldılma və ya hesablaşma baş verdikdə mühasibat uçotunun tənzimlənməsinə yönəldilib. Düzəlişlər, illik hesabat dövründə rəsmi plana düzəliş, azalma və ya hesablaşma baş verdikdə, müəssisə dəyişikliklər edildikdən sonra tətbiq olunan planda müəyyən edilmiş müavinət öhdəliyi (aktivi) və plan aktivlərinin hadisədən sonra yenidən qiymətləndirilməsi məqsədilə aktuari fərziyyələrindən istifadə edərək dövrün qalan hissəsi üçün cari xidmət dəyərini müəyyənləşdirməlidir. Müəssisədən, plan dəyişikliyindən, azaldılmadan və ya hesablaşmadan sonrakı dövrdə plan çərçivəsində təklif olunan müavinət öhdəliyini (aktivi) əks etdirən müəyyənləşdirilmiş mənfəət öhdəliyini (aktiv) istifadə etməklə xalis faizi və xalis müəyyən edilmiş müavinət öhdəliyinin (aktivin) yenidən qiymətləndirilməsi üçün istifadə olunan diskont dərəcəsini müəyyən etmək tələb olunur. Düzəlişlər Təşkilatın maliyyə hesabatlarına təsir göstərmir, çünki dövr ərzində hər hansı plan dəyişiklikləri, azalma və ya hesablaşmalar qeydə alınmamışdır.

## 4. Uçot Siyasətinin Tətbiqi Zamanı Əhəmiyyətli Ehtimallar və Mülahizələr

Təşkilat növbəti il ərzində hesabatlarda əks etdirilən aktiv və öhdəliklərin məbləğlərinə təsir göstərən ehtimallar və mülahizələr irəli sürür. Həmin ehtimallar və mülahizələr müntəzəm olaraq rəhbərliyin təcrübəsinə və digər amillərə, həmçinin rəhbərliyin fikrincə mövcud şəraitə uyğun olaraq əsaslandırılmış gələcək hadisələr üzrə təxminlərə əsasən təhlil edilir. Uçot siyasətinin tətbiqi zamanı rəhbərlik həmçinin peşəkar mülahizələr və təxminlər irəli sürür. Maliyyə hesabatlarında əks etdirilən məbləğlərə daha çox təsir göstərən peşəkar mülahizələr və növbəti il ərzində aktiv və öhdəliklərin balans dəyərinə əhəmiyyətli düzəlişlərin edilməsinə səbəb olan təxminlərə aşağıdakılar daxildir:

***Kreditlər və avansların dəyərsizləşməsi üzrə zərər.*** Təşkilat müntəzəm olaraq kredit portfeli üzrə dəyərsizləşmənin mövcudluğunu müəyyən etmək üçün onu təhlil edir. Dəyərsizləşmə üzrə zərərin mənfəət və zərər hesabatında əks etdirilməsini müəyyən edərkən, Təşkilat kredit portfelində konkret bir kreditin dəyərində azalmanın müşahidə edilməsindən əvvəl kredit portfeli üzrə pul vəsaitlərinin təxmin edilən hərəkətində ölçülə bilən azalmanı əks etdirən nəzərə çarpan əlamətlərin mövcudluğunu müəyyən etmək üçün peşəkar mülahizələr irəli sürür.

Rəhbərlik gələcək pul vəsaitləri hərəkətinin proqnozlaşdırılması üçün istifadə edilən kredit portfelindəki aktivlər ilə analoji kredit riskinə və dəyərsizləşmə üzrə obyektiv əlamətlərə malik aktivlər ilə əlaqədar əvvəlki ilin zərərləri haqqında məlumata əsaslanan təxminlər tətbiq edir. Gələcək pul vəsaitləri hərəkətinin məbləğini və müddətini təxmin edərkən istifadə edilən metodologiya və mülahizələr, təxmini və həqiqi zərərlər arasındakı hər hansı fərqi azaltmaq məqsədilə müntəzəm olaraq nəzərdən keçirilir.

***Qanunvericilik.*** Azərbaycanın vergi, valyuta və gömrük qanunvericiliyi müxtəlif şərhlərə məruz qalır.

***Təxirə salınmış vergi aktivinin uçotu.*** Uçota alınmış təxirə salınmış xalis vergi aktivi vergiyə cəlb olunan gəlirdən gələcək çıxılmalar vasitəsilə əldə olunan mənfəət vergisi məbləğlərindən ibarətdir və maliyyə vəziyyəti haqqında hesabatda qeydə alınır. Təxirə salınmış mənfəət vergisi aktivi müvafiq vergi faydasının realizasiya oluna biləcəyi zaman qeydə alınır. Vergiyə cəlb olunan gələcək mənfəətin və gələcəkdə yaranması ehtimal edilən vergi faydası məbləğinin müəyyən edilməsi rəhbərlik tərəfindən hazırlanmış ortamüddətli biznes planına və onun ekstrapolyasiya nəticələrinə əsaslanır. Biznes-plan rəhbərliyin şəraitə adekvat olan təxminlərinə əsaslanır.

## 4. Uçot Siyasətinin Tətbiqi Zamanı Əhəmiyyətli Ehtimallar və Mülahizələr (Davamı)

***Əlaqəli tərəflərlə əməliyyatların ilkin uçotu.*** Təşkilat öz fəaliyyəti gedişində əlaqəli tərəflərlə əməliyyatlar aparır. 9 saylı MHBS-ə uyğun olaraq maliyyə alətləri ilkin olaraq ədalətli dəyərdə uçota alınmalıdır. Lakin, həmin əməliyyatların bazar və ya qeyri-bazar faiz dərəcələrində həyata keçirilməsini müəyyən etmək məqsədilə bu cür əməliyyatlar üçün fəal bazar mövcud olmadıqda peşəkar mülahizələrdən istifadə etmək lazım gəlir. Mülahizələrin irəli sürülməsinin əsasını əlaqəli olmayan tərəflərlə analoji əməliyyatların qiymətinin müəyyən edilməsi və effektiv faiz dərəcəsinin təhlili təşkil edir.

***Fasiləsiz fəaliyyət prinsipi.*** Rəhbərlik hazırkı maliyyə hesabatlarını fasiləsiz fəaliyyət prinsipinə əsasən hazırlamışdır. Belə bir mülahizə irəli sürərkən rəhbərlik Təşkilatın maliyyə vəziyyətini, mövcud planları, əməliyyatların gəlirliliyini və maliyyə resurslarından istifadəni nəzərə almış və son maliyyə böhranının Təşkilatın gələcək əməliyyatlarına təsirini təhlil etmişdir.

Rəhbərliyin ölçü və hesabatlarına əsasən Təşkilat növbəti 12 ay ərzində likvidlik ehtiyaclarını tənzimləyə biləcək və buna əsasən hazırkı maliyyə hesabatları fasiləsizlik prinsipi əsasında hazırlanmışdır.

## 5. Yeni və Yenidən İşlənmiş Standartların və Onlara Dair Şərhlərin Tədbiqi

Aşağıda qeyd olunan yeni və ya düzəliş edilmiş standartlar və şərhlər ilk dəfə 01 yanvar 2020-ci il tarixindən etibarən başlayan maliyyə hesabat dövrlərində tətbiq olunur:

***Əhəmiyyətlilik meyarı** – 1 saylı MUBS-ya və 8 saylı MUBS-ya düzəlişlər (Qüvvədə olma tarixi: 1 yanvar 2020)).* MUBSK 1 saylı MUBS Maliyyə Hesabatlarının Təqdim Edilməsi və Maliyyə Hesabatlarının Beynəlxalq Standartları və Maliyyə Hesabatı üçün Konseptual Çərçivə daxilində əhəmiyyətlilik anlayışını sabit şəkildə təriflәndirən 8 saylı MUBS Uçot Siyasəti, Uçot Qiymətləndirmələrində Dəyişikliklər və Səhvlərə, məlumatın nə dərəcədə əhəmiyyətli olduğunu dəqiqləşdirən düzəlişləri, eləcə də 1 saylı MUBS-ya əsasən maddi əhəmiyyətli hesab olunmayan məlumatlara dair dəyişiklikləri tətbiq etdi. Düzəlişlər, xüsusilə:

- Gizli məlumatlara dair tövsiyələrin bu məlumatı təqdim etməmə və ya yanlış təqdim etmə hallarının eyni səviyyədə əhəmiyyətli olduğunu və müəssisənin əhəmiyyətliliyi bütövlükdə maliyyə hesabatları kontekstində qiymətləndirdiyini izah edir;
- Maliyyə hesabatlarının birbaşa yönəldildiyi "ümumi təyinatlı maliyyə hesabatlarının ilkin istifadəçiləri" ifadəsi maliyyə məlumatlarının əksəriyyəti üçün ümumi məqsədli maliyyə hesabatlarına əsaslanan "mövcud və potensial investor, borcverənlər və digər kreditorlar" olaraq təyin edilir.

***Biznesin tərifi - 3 saylı MHBS-ya düzəlişlər** (Qüvvəyə minmə tarixi: 1 yanvar 2020)*
Biznesin tərifinə edilmiş düzəliş birlikdə son məhsulu ərsəyə gətirmək bacarığına malik hərəkətlərin və substantiv prosedurların mövcudluğunu tələb edir. "son məhsul" anlayışına düzəliş müştərilərə təqdim olunan mal və xidmətlərə görə əldə olunan gəlirlər, investisiya gəlirləri və digər gəlir yaradan fəaliyyətlərə diqqəti yönəltməklə yanaşı azalan xərclər və digər kiçik iqtisadi fayda şəklində gəlirləri istisna edir. Düzəlişlərin, aktivlərin alınması kimi uçota alınan daha çox satınalmalara səbəb olacağı ehtimal edilir.

***Maliyyə Hesabatı üçün Yenidən işlənmiş Konseptual Əsaslar** (Qüvvəyə minmə tarixi: 1 yanvar 2020)*

Birbaşa təsiri ilə standart tənzimləmə qərarlarında istifadə ediləcək və MUBSK tərəfindən yenidən işlənib nəşr edilmiş Konseptual Əsaslar aşağıdakı əsas dəyişiklikləri ehtiva edir:

- maliyyə hesabatı məqsədi kimi idarəetmənin əhəmiyyətinin artırılması
- neytrallıq komponenti kimi ehtiyatlılığın bərpa edilməsi
- hüquqi şəxs və ya təşkilatın bir hissəsi kimi, hesabat verəcək müəssisənin müəyyənləşdirilməsi
- aktiv və öhdəlik anlayışlarına yenidən baxılması
- tanınma üçün ehtimal həddinin çıxarılması və tanınmanın dayandırılmasına dair təlimat əlavə edilməsi
- müxtəlif ölçü əsasları üzrə təlimat əlavə olunması və
- mənfəət və ya zərərin əsas fəaliyyət göstəricisi olduğunu və prinsip etibarı ilə digər məcmu gəlirlərdəki gəlir və xərclərin maliyyə hesabatlarının aktuallığını və ya etibarlılığını artırdığı hallarda mənfəət və ya zərərdə tanınması

## 5. Yeni və Yenidən İşlənmiş Standartların və Onlara Dair Şərhlərin Tədbiqi (Davamı)

Mövcud mühasibat uçotu standartlarından heç birində dəyişiklik edilməyəcəkdir. Bununla birlikdə, əməliyyatlar, hadisələr və şərtlər üçün uçot siyasətlərini müəyyənləşdirməkdə Konseptual Əsaslara etibar edən təşkilatlar mühasibat uçotu standartları ilə başqa cür əlaqələndirilməyən, yenidən işlənmiş Konseptual Əsasları 2020-ci il 01 yanvar tarixindən tətbiq etməli olacaq. Bu təşkilatlar uçot siyasətlərinin yenidən işlənmiş Konseptual Əsaslara hələ də uyğun olub olmadığını müəyyən etməlidirlər.

**Dərc olunmuş, lakin hazırda qəbul olunmamış standartlar və şərhlər**

Aşağıdakı verilən dərc olunmuş, lakin 31 dekabr 2020-ci il tarixində bitən illik hesabat dövrü üçün tətbiqi icbari olmayan yeni və ya dəyişdirilmiş Standartlarının və Şərhlərin Cəmiyyət tərəfindən erkən tətbiqi həyata keçirilməmişdir.

**17 saylı MHBS Sığorta müqavilələri** (Qüvvədə olma tarixi:01 yanvar 2021-ci il (01 yanvar 2022-ciilədək uzadıla bilər))

17 saylı MHBS 2017-ci ilin may ayında 4 saylı MHBS Sığorta Müqavilələri ilə əvəz edilmişdir. Standart hər hesabat dövründə təxminlərin yenidən ölçüldüyü cari ölçmə modelini tələb edir. Müqavilələr aşağıda göstərilən əsaslar vasitəsilə ölçülür:

- diskontlaşdırılmış ehtimal-orta çəkili pul vəsaitlərinin hərəkəti ilə,
- açıq risk tənzimlənməsi ilə; və
- qüvvədə olma müddəti ərzində gəlir kimi tanınan müqavilənin əldə edilməmiş mənfəətini təmsil edən müqavilə üzrə xidmət marjası (MXM).

Standart uçot dərəcələrinin dəyişməsini ya mənfəət və ya zərər haqqında hesabatda ya da birbaşa digər məcmu gəlirdə tanımaq arasında seçim etməyə imkan verir. Əldə olunan qərar sığortaçıların maliyyə aktivlərini 9 saylı MHBS-yə nə dərəcədə uyğun olduğunu əks etdirir.

Əlavə olaraq, qeyri-həyat sığortaları üzrə qeyd olunan sadələşdirilmiş mükafat bölgüsü yanaşması, qısa müddətli müqavilələr üçün öhdəlik hüququna icazə verir. Həyat sığortası şirkətləri tərəfindən yazılmış bəzi müqavilələr üçün 'dəyişkən ödəniş haqqı yanaşması' adlanan ümumi ölçü modelində sığorta sahiblərinin əsas maddələrdən əldə olunan gəlirdə iştirak payı tanınır.

## 6. Pul Vəsaitləri və Onların Ekvivalentləri

| *Azərbaycan Manatı ilə* | **31 dekabr 2020-ci il** | **31 dekabr 2019-cu il** |
|---|---|---|
| Nağd pul | 353,216 | 628,744 |
| *Banklarda yerləşdirilmiş cari vəsaitlər:* | | |
| Reytinqi "B+" -dan aşağı | 25,764 | 5,287 |
| Reytinqsiz | 38,168 | 91,065 |
| **Cəmi banklarda yerləşdirilmiş cari vəsaitlər** | **63,932** | **96,352** |
| Azərpoçt MMC | 174,778 | 78,520 |
| Yolda olan pul vəsaiti | 39,085 | 7,550 |
| **Cəmi pul vəsaitləri və onların ekvivalentləri** | **631,011** | **811,166** |

| *Azərbaycan Manatı ilə* | **31 dekabr 2020-ci il** | **31 dekabr 2019-cu il** |
|---|---|---|
| Nağd pul | 353,216 | 628,744 |
| Banklarda olan vəsaitlər | 63,932 | 96,352 |
| Azərpoçt MMC | 174,778 | 78,520 |
| Yolda olan pul vəsaiti | 39,085 | 7,550 |
| **Cəmi pul vəsaitləri və onların ekvivalentləri** | **631,011** | **811,166** |

## 7. Müştərilərə Verilmiş Kreditlər və Avanslar

| *Azərbaycan Manatı ilə* | **31 dekabr 2020-ci il** | **31 dekabr 2019-cu il** |
|---|---|---|
| Fiziki şəxslərə verilmiş kreditlər | | |
| -İstehlak kreditləri | 13,383,900 | 10,219,978 |
| -Kənd təsərrüfatı | - | 228,040 |
| Kredit zərərləri üzrə ehtiyat | (980,118) | (1,094,118) |
| **Cəmi müştərilərə verilmiş kreditlər və avanslar** | **12,403,782** | **9,353,900** |

Kredit portfelinin iqtisadi sektorlar üzrə bölgüsü aşağıdakı kimidir:

| | **31 dekabr 2020-ci il** | | **31 dekabr 2019-cu il** | |
|---|---|---|---|---|
| *Azərbaycan Manatı ilə* | **Məbləğ** | **%** | **Məbləğ** | **%** |
| **Fiziki şəxslərə verilmiş kreditlər** | | | | |
| -İstehlak kreditləri | 12,403,782 | 100% | 9,125,860 | 97.56% |
| -Kənd təsərrüfatı | - | 0% | 228,040 | 2.44% |
| **Cəmi müştərilərə verilmiş kreditlər və avanslar** | **12,403,782** | **100%** | **9,353,900** | **100.00%** |

Kreditin dəyərsizləşməsini müəyyən edərkən Təşkilatın nəzərə aldığı əsas amillər onun vaxtı keçmiş statusu və müvafiq girov təminatının (əgər varsa) dəyərini realizasiya etmək imkanıdır.

Verilmiş kreditlər üzrə yaradılan ehtiyatların hərəkəti bu cədvəldə göstərilmişdir:

| *Azərbaycan Manatı ilə* | **Cəmi:** |
|---|---|
| **31 dekabr 2018-ci il tarixinə kreditin dəyərsizləşməsi üzrə ehtiyat** | **(557,361)** |
| Dövr ərzində kredit zərərləri üzrə ehtiyat | (536,757) |
| **31 dekabr 2019-cu il tarixinə kreditin dəyərsizləşməsi üzrə ehtiyat** | **(1,094,118)** |
| Dövr ərzində kredit zərərləri üzrə ehtiyat | (425,283) |
| Dövr ərzində silinmə | 539,283 |
| **31 dekabr 2020-ci il tarixinə kreditin dəyərsizləşməsi üzrə ehtiyat** | **(980,118)** |

## 7. Müştərilərə Verilmiş Kreditlər və Avanslar (Davamı)

| | 2020-ci il | | | |
|---|---|---|---|---|
| *Azərbaycan Manatı ilə* | **Mərhələ 1** | **Mərhələ 2** | **Mərhələ 3** | **Cəmi** |
| Vaxtı keçməmiş və dəyərsizləşməmiş | 11,796,046 | - | - | **11,796,046** |
| Vaxtı keçmiş, lakin dəyərsizləşməmiş | - | 834,680 | - | **834,680** |
| Fərdi şəkildə dəyərsizləşmiş (ümumi məbləğ) | - | - | 753,174 | **753,174** |
| Kredit zərərləri üzrə ehtiyat | (82,046) | (274,964) | (623,108) | **(980,118)** |
| **Cəmi müştərilərə verilmiş kreditlər və avanslar** | **11,714,000** | **559,716** | **130,066** | **12,403,782** |

| | 2019-cu il | | | |
|---|---|---|---|---|
| *Azərbaycan Manatı ilə* | **Mərhələ 1** | **Mərhələ 2** | **Mərhələ 3** | **Cəmi** |
| Vaxtı keçməmiş və dəyərsizləşməmiş | 8,430,508 | **-** | **-** | **8,430,508** |
| Vaxtı keçmiş, lakin dəyərsizləşməmiş | **-** | 1,084,379 | **-** | **1,084,379** |
| Fərdi şəkildə dəyərsizləşmiş (ümumi məbləğ) | **-** | **-** | 933,131 | **933,131** |
| Kredit zərərləri üzrə ehtiyat | **-** | (180,920) | (913,198) | **(1,094,118)** |
| **Cəmi müştərilərə verilmiş kreditlər və avanslar** | **8,430,508** | **903,459** | **19,933** | **9,353,900** |

31 dekabr 2020-ci il tarixinə fiziki şəxslərə-verilmiş kreditlərin girov təminatı haqqında məlumat aşağıdakı kimi olmuşdur:

| *Azərbaycan Manatı ilə* | **Fiziki şəxslərə verilmiş - istehlak kreditləri** | **Fiziki şəxslərə verilmiş – Kənd təsərrüfatı kreditləri** | **Cəmi** |
|---|---|---|---|
| Kredit təminatları: | | | |
| - Qiymətli metallar | 11,281,514 | - | 11,281,514 |
| - Daşınmaz əmlak | 6,414 | - | 6,414 |
| - Daşınan əmlak | 549,307 | - | 549,307 |
| - Digər | 566,547 | - | 566,547 |
| **Cəmi müştərilərə verilmiş kreditlər və avanslar** | **12,403,782** | **-** | **12,403,782** |

**7. Müştərilərə Verilmiş Kreditlər və Avanslar (Davamı)**

31 dekabr 2020-ci il tarixinə müştərilərə verilmiş kreditlər və avansların keyfiyyətinə görə təhlili:

| | 2020-ci il | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | *Mərhələ 1* | *Mərhələ 1* | *Mərhələ 2* | *Mərhələ 2* | *Mərhələ 3* | *Mərhələ 3* | |
| *Azərbaycan Manatı ilə* | **İstehlak kreditləri** | **Kənd təsərrüfatı kreditləri** | **İstehlak kreditləri** | **Kənd təsərrüfatı kreditləri** | **İstehlak kreditləri** | **Kənd təsərrüfatı kreditləri** | **Cəmi** |
| Vaxtı keçməmiş və dəyərsizləşməmiş | | | | | | | |
| - İri müştərilər | 1,570,839 | - | - | - | - | - | **1,570,839** |
| - Orta həcmli müştərilər | 2,107,397 | - | - | - | - | - | **2,107,397** |
| - Kiçik həcmli müştərilər | 8,117,810 | - | - | - | - | - | **8,117,810** |
| **Cəmi vaxtı keçməmiş və dəyərsizləşməmiş** | **11,796,046** | **-** | **-** | **-** | **-** | **-** | **11,796,046** |
| Vaxtı keçmiş, lakin dəyərsizləşməmiş | | | | | | | |
| - ödənişin 30 gündən az gecikdirilməsi | - | - | - | - | - | - | **-** |
| - ödənişin 30 gündən 90 günədək gecikdirilməsi | - | - | 823,151 | - | - | - | **823,151** |
| - ödənişin 90 gündən 180 günədək gecikdirilməsi | - | - | 11,529 | - | - | - | **11,529** |
| - ödənişin 180 gündən 360 günədək gecikdirilməsi | - | - | - | - | - | - | **-** |
| - ödənişin 360 gündən artıq gecikdirilməsi | - | - | - | - | - | - | **-** |
| **Cəmi vaxtı keçmiş, lakin dəyərsizləşməmiş** | **-** | **-** | **834,680** | **-** | **-** | **-** | **834,680** |
| Fərdi şəkildə dəyərsizləşmiş (ümumi məbləğ) | | | | | | | |
| - ödənişin 30 gündən az gecikdirilməsi | - | - | - | - | - | - | **-** |
| - ödənişin 30 gündən 90 günədək gecikdirilməsi | - | - | - | - | - | - | **-** |
| - ödənişin 90 gündən 180 günədək gecikdirilməsi | - | - | - | - | 127,049 | - | **127,049** |
| - ödənişin 180 gündən 360 günədək gecikdirilməsi | - | - | - | - | 101,342 | - | **101,342** |
| - ödənişin 360 gündən artıq gecikdirilməsi | - | - | - | - | 524,783 | - | **524,783** |
| **Cəmi fərdi şəkildə dəyərsizləşmiş (ümumi məbləğ)** | **-** | **-** | **-** | **-** | **753,174** | **-** | **753,174** |
| **Kredit zərərləri üzrə ehtiyat** | **(82,046)** | **-** | **(274,964)** | **-** | **(623,108)** | **-** | **(980,118)** |
| **Cəmi müştərilərə verilmiş kreditlər və avanslar** | **11,714,000** | **-** | **559,716** | **-** | **130,066** | **-** | **12,403,782** |

**7. Müştərilərə Verilmiş Kreditlər və Avanslar (Davamı)**

31 dekabr 2019-cu il tarixinə müştərilərə verilmiş kreditlər və avansların keyfiyyətinə görə təhlili:

| | 2019-cu il | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | *Mərhələ 1* | *Mərhələ 1* | *Mərhələ 2* | *Mərhələ 2* | *Mərhələ 3* | *Mərhələ 3* | |
| *Azərbaycan Manatı ilə* | **İstehlak kreditləri** | **Kənd təsərrüfatı kreditləri** | **İstehlak kreditləri** | **Kənd təsərrüfatı kreditləri** | **İstehlak kreditləri** | **Kənd təsərrüfatı kreditləri** | **Cəmi** |
| Vaxtı keçməmiş və dəyərsizləşməmiş | | | | | | | |
| - İri müştərilər | 1,197,047 | 228,040 | - | - | - | - | 1,425,087 |
| - Orta həcmli müştərilər | 1,110,959 | - | - | - | - | - | 1,110,959 |
| - Kiçik həcmli müştərilər | 5,894,462 | - | - | - | - | - | 5,894,462 |
| **Cəmi vaxtı keçməmiş və dəyərsizləşməmiş** | **8,202,468** | **228,040** | **-** | **-** | **-** | **-** | **8,430,508** |
| Vaxtı keçmiş, lakin dəyərsizləşməmiş | | | | | | | |
| - ödənişin 30 gündən az gecikdirilməsi | - | - | 846,752 | - | - | - | **846,752** |
| - ödənişin 30 gündən 90 günədək gecikdirilməsi | - | - | 201,368 | - | - | - | **201,368** |
| - ödənişin 90 gündən 180 günədək gecikdirilməsi | - | - | 35,507 | - | - | - | **35,507** |
| - ödənişin 180 gündən 360 günədək gecikdirilməsi | - | - | 752 | - | - | - | **752** |
| - ödənişin 360 gündən artıq gecikdirilməsi | - | - | - | - | - | - | **-** |
| **Cəmi vaxtı keçmiş, lakin dəyərsizləşməmiş** | **-** | **-** | **1,084,379** | **-** | **-** | **-** | **1,084,379** |
| Fərdi şəkildə dəyərsizləşmiş (ümumi məbləğ) | | | | | | | |
| - ödənişin 30 gündən az gecikdirilməsi | - | - | - | - | 19,015 | - | **19,015** |
| - ödənişin 30 gündən 90 günədək gecikdirilməsi | - | - | - | - | 15,402 | - | **15,402** |
| - ödənişin 90 gündən 180 günədək gecikdirilməsi | - | - | - | - | 18,803 | - | **18,803** |
| - ödənişin 180 gündən 360 günədək gecikdirilməsi | - | - | - | - | 37,469 | - | **37,469** |
| - ödənişin 360 gündən artıq gecikdirilməsi | - | - | - | - | 842,442 | - | **842,442** |
| **Cəmi fərdi şəkildə dəyərsizləşmiş (ümumi məbləğ)** | **-** | **-** | **-** | **-** | **933,131** | **-** | **933,131** |
| **Kredit zərərləri üzrə ehtiyat** | **-** | **-** | **(180,920)** | **-** | **(913,198)** | | **(1,094,118)** |
| **Cəmi müştərilərə verilmiş kreditlər və avanslar** | **8,202,468** | **228,040** | **903,459** | **-** | **19,933** | **-** | **9,353,900** |

## 8. Əmlak, Avadanlıqlar və Qeyri-maddi aktivlər

| *Azərbaycan Manatı ilə* | Mebel və avadanlıqlar | Kompüter və avadanlıqlar | Nəqliyyat vasitələri | Cəmi əmlak və avadanlıqlar | Qeyri-maddi aktivlər | Cəmi |
|---|---|---|---|---|---|---|
| **Balans dəyəri:** | | | | | | |
| **31 dekabr 2018-ci il üçün** | **84,156** | **10,577** | **239,260** | **333,993** | **22,500** | **356,493** |
| Əlavələr | 743 | 5,962 | 247,396 | 254,101 | - | 254,101 |
| Silinmələr | - | - | - | - | - | - |
| **31 dekabr 2019-cu il üçün** | **84,899** | **16,539** | **486,656** | **588,094** | **22,500** | **610,594** |
| Əlavələr | 332,521 | 261,001 | 85,930 | 679,452 | 12,000 | 691,452 |
| Silinmələr | - | - | (26,400) | (26,400) | - | (26,400) |
| **31 dekabr 2020-ci il üçün** | **417,420** | **277,540** | **546,186** | **1,241,146** | **34,500** | **1,275,646** |
| **Yığılmış köhnəlmə və amortizasiya:** | | | | | | |
| **31 dekabr 2018-ci il üçün** | **(38,980)** | **(7,211)** | **(121,870)** | **(168,061)** | **(9,358)** | **(177,419)** |
| Köhnəlmə və amortizasiya ayırmaları | (17,258) | (2,574) | (92,583) | (112,415) | (2,250) | (114,665) |
| Yığılmış köhnəlmədən silinmələr | - | - | - | - | - | - |
| **31 dekabr 2019-cu il üçün** | **(56,238)** | **(9,785)** | **(214,453)** | **(280,476)** | **(11,608)** | **(292,084)** |
| Köhnəlmə və amortizasiya ayırmaları | (41,790) | (26,282) | (108,244) | (176,316) | (2,749) | (179,065) |
| Yığılmış köhnəlmədən silinmələr | - | - | 26,400 | 26,400 | - | 26,400 |
| **31 dekabr 2020-ci il üçün** | **(98,028)** | **(36,067)** | **(296,297)** | **(430,392)** | **(14,357)** | **(444,749)** |
| **Xalis Dəyəri:** | | | | | | |
| **31 dekabr 2018-ci il üçün** | **45,176** | **3,366** | **117,390** | **165,932** | **13,142** | **179,074** |
| **31 dekabr 2019-cu il üçün** | **28,661** | **6,754** | **272,203** | **307,618** | **10,892** | **318,510** |
| **31 dekabr 2020-ci il üçün** | **319,392** | **241,473** | **249,889** | **810,754** | **20,143** | **830,897** |

31 dekabr 2020-ci il tarixində avadanlıqlar və qeyri-maddi aktivlərin hər bir kateqoriyasının balans dəyəri təxminən onların ədalətli dəyərinə bərabərdir.

31 dekabr 2020-ci il tarixində avadanlıqlar və qeyri maddi aktivlərin təxmin edilən ədalətli dəyəri 830,897 AZN (2019-cu il: 318,510 AZN) təşkil etmişdir.

## 9. Aktivdən İstifadə Hüququ və İcarə Öhdəlikləri

01 yanvar 2020-ci il tarixindən etibarən icarə müqavilələri, icarəyə götürülmüş aktivin, Təşkilatın istifadəsi üçün hazır olduğu tarixdən başlayaraq müvafiq öhdəliklə birlikdə aktivdən istifadə hüququ kimi tanınır.

Aktivdən istifadə hüququ icarə predmeti olan aktivlərin növünə görə təhlil aşağıda göstərilir:

| | **Ofis sahəsi** | **Cəmi** |
|---|---|---|
| **01 yanvar 2020-ci il tarixinə balans dəyəri (16 saylı MHBS-nin tətbiq edilməsindən əvvəl)** | **-** | **-** |
| İl üzrə əlavələr | 857,868 | **857,868** |
| Aktivdən istifadə hüququ üzrə köhnəlmə xərci | (47,188) | **(47,188)** |
| **31 dekabr 2020-ci il tarixinə balans dəyəri** | **810,680** | **810,680** |

İlin əvvəli və ilin sonuna icarə öhdəlikləri məbləğinin maliyyələşdirmə fəaliyyətində müvafiq nağd və nağdsız dəyişikliklərlə uyğunlaşdırılması aşağıdakı göstərilir:

| | **İcarə öhdəlikləri** |
|---|---|
| **01 yanvar 2020-ci il tarixinə balans dəyəri (16 saylı MHBS-nin tətbiq edilməsindən əvvəl)** | **-** |
| İl üzrə əlavələr | 857,868 |
| İcarə öhdəlikləri üzrə hesablanan faiz xərci | 14,919 |
| İcarə öhdəlikləri üzrə hesablanan faiz xərcinin ödənilməsi | (14,919) |
| İcarə öhdəlikləri üzrə əsas məbləğin ödənilməsi | (40,668) |
| **31 dekabr 2020-ci il tarixinə balans dəyəri** | **817,200** |

31 dekabr 2020-ci il tarixinə gələcək minimum icarə ödənişləri:

| | **1 il ərzində** | **1 ildən çox** | **Cəmi** |
|---|---|---|---|
| Minimum icarə ödənişləri | 210,944 | 736,446 | 947,390 |
| Maliyyə xərci | (48,977) | (81,213) | (130,190) |
| **Xalis dəyər** | **161,967** | **655,233** | **817,200** |

Tanınmış icarə öhdəlikləri ödəniş müddəti üzrə aşağıdakı kimi təsnif edilir:

| | **31 dekabr 2020-ci il tarixinə** | **01 yanvar 2020-ci il tarixinə** |
|---|---|---|
| Qısamüddətli hissə | 336,151 | - |
| Uzunmüddətli hissə | 481,049 | - |
| **Cəmi icarə öhdəlikləri** | **817,200** | **-** |

## 10. Digər Aktivlər

| *Azərbaycan Manatı ilə* | **31 dekabr 2020-ci il** | **31 dekabr 2019-cu il** |
|---|---|---|
| Vergi orqanları ilə hesablaşmalar | - | 329 |
| Qabaqcadan ödənilmiş xərclər | 14,384 | 14,384 |
| Əsas vəsaitin alışı üçün qabaqcadan ödəniş | 840 | - |
| DSMF ilə hesablaşmalar | 5,986 | - |
| **Cəmi digər aktivlər** | **21,210** | **14,713** |

## 11. Müddətli Borc Öhdəlikləri

| *Azərbaycan Manatı ilə* | **31 dekabr 2020-ci il** | **31 dekabr 2019-cu il** |
|---|---|---|
| **Rezident banklar və digər təşkilatlardan borc götürülmüş vəsaitlər:** | | |
| - Yelo Bank ASC | 3,077,736 | 3,997,500 |
| - Paşa Bank ASC | 1,226,782 | 1,015,045 |
| - Para BOKT ASC | - | 300,000 |
| - Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyi | - | 232,553 |
| - Rabitə Bank ASC | - | 76,122 |
| **Cəmi** | **4,304,518** | **5,621,220** |
| **Fiziki şəxslərdən götürülmüş borc vəsaitləri:** | | |
| - Leyla Cabbarova | 1,141,850 | - |
| Hesablanmış ödəniləcək faizlər | 23,808 | 23,851 |
| **Cəmi müddətli borc öhdəlikləri** | **5,470,176** | **5,645,071** |

18 yanvar 2019-cu il, 05 sentyabr 2019-cu il və 19 iyun 2019-cu il tarixlərində Təşkilat ilə Yelo Bank ASC arasında 1,000,000 AZN, 1,000,000 AZN və 1,175,000 ABŞ dolları məbləğlərində 18 yanvar 2021-ci, 19 dekabr 2020-ci il və 19 iyun 2021-ci il tarixlərinədək kredit limiti sazişləri imzalanmışdır. Bu vəsaitlərin illik faiz dərəcələri uyğun olaraq 16%,16% və 6% təyin edilmişdir. 2020-ci il ərzində Təşkilat ilə Yelo Bank ASC arasında mövcud kredit müqavilələrinin vaxtları, müvafiq olaraq 25 may 2023-cü il, 11 iyun 2025-ci il və 21 dekabr 2023-cü il tarixlərinə qədər uzadılmış, faiz dərəcələri uyğun olaraq 17%, 17% və 6% olaraq təyin edilmişdir

07 fevral 2020-ci il, 18 fevral 2020-ci il, 21 fevral 2020-ci il, 26 fevral 2020-ci il, 28 fevral 2020-ci il, 10 avqust 2020-ci il, 18 fevral 2020-ci il, 31 avqust 2020-ci il, 17 dekabr 2020-ci il tarixlərində Təşkilat ilə Paşa Bank ASC arasında 100,000 AZN, 100,000 AZN, 200,000 AZN, 400,000 AZN, 200,000 AZN, 250,000 AZN, 134,200 AZN, 482,950 AZN, 245,000 AZN məbləğlərində 07 fevral 2021-ci il, 18 fevral 2021-ci il, 21 fevral 2021-ci il, 26 fevral 2021-ci il, 28 fevral 2021-ci il, 10 avqust 2021-ci il, 18 fevral 2021-ci il, 31 avqust 2021-ci il, 17 dekabr 2021-ci il tarixlərinədək kredit və kredit limiti sazişləri imzalanmışdır. Bu vəsaitlərin illik faiz dərəcələri 16%, 16%, 16%, 16%, 16%, 16%, 14%, 14%, 14% təyin edilmişdir.

19 oktyabr 2020-ci il, 21 oktyabr 2020-ci il, 17 noyabr 2020-ci il, 19 noyabr 2020-ci il, 04 noyabr 2020-ci il, tarixlərində Təşkilat ilə Leyla Cabbarova arasında 100,000 ABŞ dolları, 100,000 AZN, 500,000 AZN, 221,850 AZN, 150,000 AZN, 19 oktyabr 2021-ci il, 21 oktyabr 2021-ci il 17 noyabr 2021-ci il, 19 noyabr 2021-ci il, 04 noyabr 2021-ci il tarixlərinədək faizsiz kredit sazişləri imzalanmışdır.

## 12. Qiymətli Kağızlar

| *Azərbaycan Manatı ilə* | **31 dekabr 2020-ci il** | **31 dekabr 2019-cu il** |
|---|---|---|
| İstiqrazlar | 3,000,000 | - |
| Veksellər | 1,890,400 | 3,864,400 |
| Hesablanmış ödəniləcək faizlər | 58,212 | 66,170 |
| **Cəmi qiymətli kağızlar** | **4,948,612** | **3,930,570** |

31 dekabr 2020-ci il tarixinə Təşkilatın 2020-ci ildə 5 il müddətinə buraxılmış və cəmi dəyəri 3,000,000 AZN olan 3000 ədəd istiqraz mövcuddur. Bu istiqrazların illik faiz dərəcəsi 18% təyin edilmişdir.

31 dekabr 2020-ci il tarixinə Təşkilatın 2016-cı ildə 5 il müddətinə buraxılmış və cəmi dəyəri 1,112,000 ABŞ dolları (1,890,400 AZN) (31 dekabr 2019-cu il, 1,112,000 ABŞ dolları, (1,890,400 AZN)) və 0 AZN dəyərində (31 dekabr 2019-cu il, 1,974,000 AZN) olan 12 (31 dekabr 2019-cu il, 23) ədəd veksel mövcuddur. Bu veksellərin illik faiz dərəcəsi 18% təyin edilmişdir.

## 13. Digər Öhdəliklər

| *Azərbaycan Manatı ilə* | **31 dekabr 2020-ci il** | **31 dekabr 2019-cu il** |
|---|---|---|
| Alınmış portfellərlə bağlı hesablaşmalar | 176,749 | 124,130 |
| Reklam xərcləri ilə bağlı hesablaşmalar | 177,500 | - |
| İşçilərlə hesablaşmalar | 81,800 | 43,689 |
| DSMF ilə hesablaşmalar | 14,410 | 7,673 |
| Milli Kart MMC ilə hesablaşmalar | 6,423 | 4,333 |
| ARMBNP ilə hesablaşmalar | - | 1,036 |
| Audit və peşəkar xidmətlərlə bağlı hesablaşmalar | 5,000 | - |
| Digər | 31,191 | 1,532 |
| **Cəmi digər öhdəliklər** | **493,073** | **182,393** |

## 14. Nizamnamə Kapitalı

| *Azərbaycan Manatı ilə* | **Nizamnamə Kapitalı** |
|---|---|
| **31 dekabr 2019-cu il** | **1,000,000** |
| Əlavə kapital qoyuluşu | 2,000,000 |
| **31 dekabr 2020-ci il** | **3,000,000** |

21 yanvar 2015-ci il tarixində Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən Bank olmayan Kredit Təşkilatlarının Prudensial Tənzimlənməsinə dair qaydaları təsdiq edilmişdir. Qaydalara əsasən, bank olmayan kredit təşkilatlarının yaradılarkən Nizamnamə kapitalı, sonrakı dövrlərdə isə məcmu kapitalı 300,000 manatdan aşağı olmamalıdır və Təşkilat bu tələbi tam yerinə yetirir.

Təşkilatın girov əmanəti qəbul etməyən bank olmayan kredit təşkilatı olaraq qanunvericilikdə nəzərdə tutulan icbari ehtiyat yaratmaq öhdəliyi yoxdur. MHBS əsasında mövcud risklərin qarşısının alınması məqsədilə Təşkilatın müştərilərə verilmiş kreditləri üzrə yaradılmış əlavə ehtiyat xərcləri yerli qanunvericilikdə könüllülük prinsipinə əsaslandığı və vergi orqanları tərəfindən xərc olaraq tanınmadığı üçün Təşkilat yerli muhasibat uçotu qaydalarına əsasən MHBS əsasında yaranan xalis mənfəətdən daha çox mənfəət əldə etmişdir.

## 15. Faiz Gəlirləri və Xərcləri

| *Azərbaycan Manatı ilə* | 31 dekabr 2020-ci il tarixinə bitən il | 31 dekabr 2019-cu il tarixinə bitən il |
|---|---|---|
| **Faiz gəlirləri** | | |
| Müştərilərə verilmiş kreditlər və avanslar | 6,478,113 | 4,641,656 |
| **Cəmi faiz gəlirləri** | **6,478,113** | **4,641,656** |
| **Faiz xərcləri** | | |
| Qiymətli kağızlar | (793,250) | (822,220) |
| Borc götürülmüş vəsaitlər | (659,459) | (573,840) |
| Aktivdən istifadə hüququnun maliyyə xərci | (14,919) | - |
| **Cəmi faiz xərcləri** | **(1,467,628)** | **(1,396,060)** |
| **Xalis faiz gəlirləri** | **5,010,485** | **3,245,596** |

## 16. Haqq və Komissiya Gəlirləri

| *Azərbaycan Manatı ilə* | 31 dekabr 2020-ci il tarixinə bitən il | 31 dekabr 2019-cu il tarixinə bitən il |
|---|---|---|
| Müştərilərə göstərilmiş xidmət haqqları | 140,809 | 132,691 |
| **Cəmi haqq və komissiya gəlirləri** | **140,809** | **132,691** |

## 17. Haqq və Komissiya Xərcləri

| *Azərbaycan Manatı ilə* | 31 dekabr 2020-ci il tarixinə bitən il | 31 dekabr 2019-cu il tarixinə bitən il |
|---|---|---|
| Bank xidmət haqqı | (92,160) | (81,370) |
| **Cəmi haqq və komissiya xərcləri** | **(92,160)** | **(81,370)** |

## 18. Digər Əməliyyat Xərcləri

| *Azərbaycan Manatı ilə* | **31 dekabr 2020-ci il tarixinə bitən il** | **31 dekabr 2019-cu il tarixinə bitən il** |
|---|---|---|
| İcarə xərcləri | (272,898) | (256,099) |
| İl üzrə köhnəlmə və amortizasiya ayırmaları | (179,065) | (114,665) |
| Rabitə xərcləri | (56,864) | (44,406) |
| Aktivdən istifadə hüququ üzrə köhnəlmə xərcləri | (47,188) | - |
| Mühafizə xərcləri | (44,317) | (29,123) |
| Xeyriyyə məqsədli xərclər | (34,997) | - |
| Audit və peşəkar xidmət xərcləri | (38,353) | (15,136) |
| Yanacaq xərcləri | (24,128) | (29,183) |
| Ofis ləvazimatı xərcləri | (23,723) | (22,587) |
| Təmir və dəstəklənmə xərcləri | (20,094) | (6,000) |
| Sığorta xərcləri | (13,669) | (20,782) |
| Kommunal xidmətlər | (7,577) | (5,475) |
| Üzvlük haqqları | (7,500) | (30,000) |
| Ezamiyyət xərcləri | (5,650) | |
| Mətbəə xərcləri | (1,623) | - |
| Maliyyə sanksiyası | (66) | (23,242) |
| Digər xərclər | (1,902) | (1,396) |
| **Cəmi inzibati və digər əməliyyat xərcləri** | **(779,614)** | **(598,094)** |

## 19. Reklam Xərcləri

| *Azərbaycan Manatı ilə* | **31 dekabr 2020-ci il tarixinə bitən il** | **31 dekabr 2019-cu il tarixinə bitən il** |
|---|---|---|
| "Puppet" MMC | (197,500) | - |
| "Gateteam" MMC | (187,500) | (60,000) |
| "Selnur Constraksen" MMC | (198,500) | - |
| "Sivas" MMC | (199,800) | - |
| "Bilec" MMC | (172,500) | - |
| "Leisure" MMC | (157,700) | - |
| "Reklam Layihə" MMC | (10,140) | - |
| "Airgroup" MMC | (5,395) | (201) |
| “Hokkaydo” MMC | - | (104,380) |
| “Ducat Company” MMC | - | (70,000) |
| “Abadlıq 2019” MMC | - | (55,289) |
| “Kuvens-33” MMC | - | (32,500) |
| Cabbarov Emin | (75,000) | (100,000) |
| Digər | (25,478) | (25,887) |
| **Cəmi reklam xərcləri** | **(1,229,513)** | **(448,257)** |

## 20. Mənfəət Vergisi

31 dekabr 2020-ci və 31 dekabr 2019-cu il tarixlərinə vergi bazasını artıran və azaldan müvəqqəti fərqlər aşağıdakılardır:

| *Azərbaycan Manatı ilə* | **31 dekabr 2020-ci il** | **31 dekabr 2019-cu il** |
|---|---|---|
| **Vergi bazasını artıran müvəqqəti fərqlər:** | | |
| İcarə öhdəlikləri | 817,200 | - |
| Müştərilərə verilmiş kreditlər və avanslar | 195,216 | 182,727 |
| Digər öhdəliklər | 96,159 | - |
| Qeyri maddi aktivlər | - | 375 |
| Veksellər | - | 57,837 |
| **Ümumi vergi bazasını artıran müvəqqəti fərqlər:** | **1,108,575** | **240,939** |
| **Vergiyə cəlb edilən müvəqqəti fərqlər:** | | |
| Aktivdən istifadə hüququ | 810,680 | - |
| Əmlak və avadanlıqlar | 118,895 | 5,902 |
| Qeyri maddi aktivlər | 270 | - |
| Digər öhdəliklər | - | 7,645 |
| **Ümumi vergiyə cəlb edilən müvəqqəti fərqlər:** | **929,845** | **13,547** |
| Xalis vergi bazasını artıran müvəqqəti fərqlər | **178,730** | **227,392** |
| Yerli vergi dərəcəsi hesablanan təxirə salınmış vergi aktivi (20%-lə 2020-ci ildə, 20%-lə 2019-cu ildə) | 35,746 | 45,478 |

Mühasibat mənfəəti ilə mənfəət vergisi xərci arasında əlaqə 31 dekabr 2020-ci il və 31 dekabr 2019-cu il tarixlərinə aşağıdakı kimi izah edilir:

| *Azərbaycan Manatı ilə* | **31 dekabr 2020-ci il tarixinə bitən il** | **31 dekabr 2019-cu il tarixinə bitən il** |
|---|---|---|
| Vergidən əvvəlki mənfəət | 270,446 | 24,737 |
| Vergi bazası | 20% | 20% |
| Vergi bazasına uyğun hesablanmış vergi xərci | (54,089) | (4,947) |
| Keçmiş illərin yığılmış zərəri | - | (14,796) |
| Vergi bazasına təsir edən digər müvəqqəti fərqlər | (14,445) | 8,905 |
| **Mənfəət vergisi xərci** | **(68,534)** | **(10,838)** |
| Cari mənfəət vergisi xərci | (58,802) | (29,550) |
| Təxirə salınmış vergi aktivində dəyişikliklər | (9,732) | 18,712 |
| **Mənfəət vergisi xərci** | **(68,534)** | **(10,838)** |

| | **31 dekabr 2020-ci il** | **31 dekabr 2019-cu il** |
|---|---|---|
| İlin əvvəlinə təxirə salınmış vergi aktivi | 45,478 | 26,766 |
| Təxirə salınmış vergi gəliri | (9,732) | 18,712 |
| **İlin sonuna təxirə salınmış vergi aktivi** | **35,746** | **45,478** |

## 21. Maliyyə Risklərinin İdarə Edilməsi

Təşkilat daxilində risklərin idarə edilməsi maliyyə (kredit, bazar, coğrafi, valyuta, likvidlik və faiz dərəcəsi riskləri), əməliyyat və hüquqi risklər ilə əlaqədar həyata keçirilir. Maliyyə risklərinin idarə edilməsi funksiyasının əsas məqsədi risk limitlərinin müəyyən edilməsi və bu limitlərə riayət edilməsidir. Əməliyyat və hüquqi risklərin idarə edilməsində məqsəd bu risklərin azaldılması üçün nəzərdə tutulan daxili qayda və prosedurlara müvafiq qaydada riayət edilməsini təmin etməkdən ibarətdir.

***Kredit riski.*** Maliyyə aləti üzrə əməliyyat aparan bir tərəf öz öhdəliyini yerinə yetirməməsi nəticəsində digər tərəfə maliyyə zərəri vurduqda, Təşkilat kredit riskinə məruz qalır. Kredit riski Təşkilatın qarşı tərəflərlə həyata keçirdiyi kredit və digər əməliyyatlar nəticəsində ortaya çıxır ki, bu da maliyyə aktivlərinin yaranmasına gətirib çıxarır.

Təşkilatın Müşahidə Şurasının tərəfindən təsdiqlənmiş Kredit Siyasətinə uyğun olaraq mümkün kredit risklərinin diversifikasiyasını və azaldılmasını təmin etmək üçün kredit portfeli üzrə təminatın növü üzrə limitlər müəyyən edilmişdir.

Bu limitlər aşağıda göstərilir:

1. Biznes və istehlak kreditləri portfeli üzrə limitlər;
2. İqtisadi sektorlar üzrə limitlər;
3. Regionlar üzrə limitlər;
4. Konsentrasiya limitləri; və
5. Təminatın növü üzrə limitlər

Müşahidə Şurası hər rüb limitləri müəyyən edir və onları nəzərdən keçirir. Bazar şəraitində əhəmiyyətli dəyişikliklər baş verdiyi təqdirdə həmin limitlərə yenidən baxıla bilər. Limitlərin dəyişməsi ilə bağlı təklif əvvəlcə Rəhbərlik, sonra isə Müşahidə Şurası tərəfindən təsdiqlənir.

Rəhbərlik müntəzəm olaraq bütün limitlərə riayət edilməsinə nəzarət edir və bəzi limitlər (bir borcalan və ya bir-biri ilə əlaqədar borcalanlar qrupuna verilmiş kreditlərin maksimum məbləği və əlaqəli tərəflərə verilmiş kreditlərin maksimum məbləği) hər hansı yeni kreditin verilməsindən əvvəl yoxlanılır.

Bundan əlavə, Azərbaycan Respublikası Mərkəzi Bankı ölkədə fəaliyyət göstərən bütün maliyyə təşkilatları tərəfindən riayət edilməsi məcburi hesab olunan bəzi limitlər müəyyən edir və bu limitlərə müntəzəm olaraq nəzarət edir.

Kredit risklərinin idarə edilməsi Təşkilatın əməliyyatlarının tərkib hissəsidir. Risklərin idarə edilməsi funksiyası kreditlərin verilməsi və təsdiqlənməsindən onun geri qaytarılmasınadək baş verən kredit prosesinin bütün mərhələlərini əhatə edir.

ARMB-nin müəyyən etdiyi Risklərin İdarə Edilməsi Standartları və Prosedurlarına əsasən risklərin idarə edilməsi prosesinə onların müəyyən edilməsi və qiymətləndirilməsi yolu ilə risklərə nəzarət edilməsi və azaldılması, bu cür risklərlə bağlı hesabatların hazırlanması (məsələn, Rəhbərlik, komitələr və risklərin idarə edilməsi üzrə mütəxəssislər tərəfindən) və Rəhbərlik tərəfindən risk limitlərinin qəbul edilməsi aid edilir.

Risklərin idarə edilməsi funksiyasının əsas məqsədləri aşağıda göstərilir. ARMB-nin müəyyən etdiyi Risklərin İdarə Edilməsi Standartlarına görə risklərin idarə edilməsi infrastrukturu və təşkilatların üzləşdiyi risklər kənar mütəxəssis və ya auditor tərəfindən ən azı ildə bir dəfə qiymətləndirilməlidir. Ümumiyyətlə, ARMB-nin müəyyən etdiyi standartlarda konkret kəmiyyət limitləri və ya standartlar nəzərdə tutulmasa da, Təşkilat tərəfindən risklərin qiymətləndirilməsi üzrə müvafiq metodologiyanın qəbul edilməsi tələb olunur.

Təşkilatda risklərin idarə edilməsi funksiyası Təşkilatın Müşahidə Şurası və bütün əməkdaşlarının vəzifə və səlahiyyətlərinin ümumi strukturuna daxildir.

Bu funksiya aşağıdakıların müəyyən edilməsini tələb edir: (i) risklərin idarə edilməsi funksiyası çərçivəsində nəzarət edilən risklərin həcmi və ya səviyyəsi, (ii) Təşkilatın daxili strukturunda risklərin idarə edilməsi funksiyasının yerinə yetirilməsinə görə məsul olan işçinin vəzifəsi və (iii) risklərlə bağlı məlumatların qiymətləndirilməsi metodologiyası, müvafiq hesabatların hazırlanması və bu cür risklərə nəzarət edilməsi (risk limitlərinin müəyyən edilməsi) və qərarların qəbul edilməsi prosesində bu cür məlumatların nəzərə alınması.

## 21. Maliyyə Risklərinin İdarə Edilməsi (Davamı)

ARMB-nin müəyyən etdiyi Risklərin İdarə Edilməsi Standartlarında kredit risklərinin xarakteri, eləcə də onların müəyyən edilməsi və qiymətləndirilməsi metodologiyası əks etdirilir. Bundan əlavə, Standartlarda Təşkilatın Müşahidə Şurası tərəfindən aşağıdakı risk limitlərinin qəbul edilməsi nəzərdə tutulur: kapital riski, bazar riski, kredit riski və konsentrasiya riski üzrə limitlər.

Təşkilat məruz qaldığı kredit riskinə bir borcalan, eləcə də coğrafi və ya fəaliyyət seqmentləri üzrə limitlər müəyyən etməklə nəzarət edir. Bu cür risklərə Kredit Komitəsi kimi Təşkilatın müvafiq bölmələri tərəfindən gündəlik nəzarət olunur. Bu cür risklərə həmçinin İdarəetmə Komitəsi tərəfindən hər ay nəzarət olunur və vaxtı keçmiş kreditlərin sayının azaldılması tələb olunduqda, prosedurların təkmilləşdirilməsi məqsədilə il ərzində mütəmadi olaraq nəzərdən keçirilir. Kredit riski səviyyəsinin məhsul, borcalan və sənaye sahələri üzrə limitləri müntəzəm olaraq Rəhbərlik tərəfindən təsdiqlənir.

Bir borcalan, o cümlədən banklar və broker şirkətlərinin məruz qaldığı kredit riski əlavə olaraq balans və balansdankənar riskləri əhatə edən ARMB-nin normativ sub-limitləri vasitəsilə, eləcə də gün ərzində forvard valyuta müqavilələri kimi ticarət vasitələri üzrə risk limitlərini ötürməklə məhdudlaşdırılır. Qəbul edilə bilən risk səviyyəsi üzrə limitlərə faktiki olaraq hər gün nəzarət edilir. Təşkilat tərəfindən aşağıdakı sub-limitlər tətbiq edilir:

- Bir borcalan və birgə borcalanlar qrupuna verilən kreditin maksimum məbləgi kreditin verilmə tarixinə BOKT-nin kapitalının 30 faizindən çox olmamalıdır.

Təşkilatın kredit siyasəti kreditlərin verilməsi prosesinə cəlb olunan Təşkilatın hər bir əməkdaşının vəzifə və səlahiyyətlərini tənzimləyir, eləcə də kreditlərin verilməsi limitlərini, kreditlərə nəzarət qaydalarını, Təşkilatın tətbiq etdiyi reytinq sisteminin prinsiplərini və kreditlərin verilməsi prosedurlarını müəyyən edir.

***Kreditin təsdiqlənməsi proseduru və səlahiyyətlərin müəyyən edilməsi.*** Kreditin təsdiqlənməsi prosesi Təşkilatın Kredit Siyasətində nəzərdə tutulan prosedurlara uyğun olaraq həyata keçirilir. Kreditin təsdiqlənməsi səlahiyyətləri hər bir biznes vahidi üzrə Təşkilatın Rəhbərliyi tərəfindən təsdiqlənmiş limitlər çərçivəsində müəyyən edilir.

***Kreditlərin təsdiqlənməsi üzrə səlahiyyətlər.*** Kreditlərin verilməsindən əvvəl Təşkilat, potensial borcalanların ətraflı qiymətləndirilməsini aparır. Bu təhlil potensial borcalanın maliyyə vəziyyətinə, bazardakı mövqeyinə, kreditin təminatı üçün qoyulmuş girovun növünə və dəyərinə, eləcə də kredit tarixçəsinə əsaslanır.

Kreditlər üzrə monitorinq borcalan üzrə Təşkilatın daxili risk reytinqini nəzərə alaraq, kreditin ümumi müddəti ərzində müntəzəm şəkildə aparılır. Bir çox hallarda planlaşdırılmış monitorinq hər rüb aparılır. Kreditin vaxtı keçdikdə, borcalana on gün ərzində bildiriş göndərilir.

Borcalan krediti ödəyə bilmədikdə 30 gün ərzində ikinci bildiriş göndərilir. Kreditlərin böyük hissəsi üzrə faiz ödənişləri hər ay aparıldığına görə, bu Təşkilata borcalanın maliyyə vəziyyətinə dair əlavə məlumat əldə etmək imkanı verir. Ödənişlərin vaxtı gecikdirildiyi halda, Kredit Komitəsi tərəfindən əlavə monitorinq keçirilir. Həmin Şöbə Təşkilatın aktivlərinin təhlükəsizliyi və mümkün kredit riskləri və zərərlərin azaldılmasını təmin etmək məqsədilə, bütün kredit növləri üzrə monitorinq aparır və monitorinqin nəticələrinə dair xüsusi hesabat hazırlayaraq onu Təşkilatın Kredit Komitəsinə təqdim edir.

Girovun qiymətləndirilməsi müstəqil peşəkar şirkət tərəfindən aparılır.

***Bazar riski.*** Təşkilat bazardakı ümumi və spesifik dəyişikliklərə məruz qalan (a) valyuta (b) faiz dərəcəsi və (c) pay alətləri üzrə açıq mövqelər ilə əlaqədar bazar risklərinə məruz qalır. Bazar risklərinin idarə edilməsində Təşkilatın məqsədi valyuta məzənnələri və faiz dərəcələrindəki mənfi dəyişikliklərə görə Təşkilatın məruz qala biləcək açıq bazar mövqeləri üzrə mümkün zərər məbləğlərinin məhdudlaşdırılması və azaldılmasından ibarətdir. İdarəetmə Komitəsi qəbul edilə bilən risklərin səviyyəsi üzrə limitlər müəyyən edir və bu limitlərə hər gün nəzarət edir. Bu limitlər ARMB-nin Açıq Valyuta Mövqeyi Limitlərinin Müəyyən Edilməsi və Tənzimlənməsi Qaydalarına uyğun olaraq müəyyən edilir.

Təşkilatın hər-hansı bir valyuta üzrə açıq valyuta mövqeyi Təşkilatın məcmu kapitalının 10.0 faizindən, bütün xarici valyutalar üzrə isə 15.0 faizindən artıq olmamalıdır. Təşkilat, ehtiyac yarandıqda ARMB-nin müəyyən etdiyi limitlərdən daha sərt limitlər müəyyən edə bilər.

**21. Maliyyə Risklərinin İdarə Edilməsi (Davamı)**

***Xarici valyuta riski.*** Təşkilat Azərbaycan manatına qarşı xarici valyuta məzənnələrindəki dəyişikliklərin onun maliyyə vəziyyətinə və pul vəsaitlərinin hərəkətinə təsiri ilə əlaqədar xarici valyuta riskinə məruz qalır. İdarəetmə Komitəsi hər bir valyuta üzrə və ümumilikdə risklərin səviyyəsi ilə əlaqədar günün sonuna, həmçinin bir gün ərzində limitlər müəyyən edir və bu limitlərə gündəlik nəzarət edir.

Təşkilat spekulyativ fəaliyyət və ya hecinq məqsədləri üçün hər hansı derivativ alətlərlə əməliyyat aparmır. Bu cür alətlər Azərbaycan Respublikasında geniş yayılmamışdır.

Hesabat dövrünün sonunda Təşkilatın məruz qaldığı valyuta riski üzrə ümumi təhlil aşağıdakı cədvəldə əks olunur:

| | **31 dekabr 2020-ci il** | | | **31 dekabr 2019-cu il** | | |
|---|---|---|---|---|---|---|
| *Azərbaycan Manatı ilə* | **Maliyyə aktivləri** | **Maliyyə öhdəlikləri** | **Mövqe** | **Maliyyə aktivləri** | **Maliyyə öhdəlikləri** | **Mövqe** |
| AZN | 13,021,299 | (8,531,911) | 4,489,388 | 9,860,022 | (5,786,425) | 4,073,597 |
| ABŞ dolları | 13,494 | (3,197,150) | (3,183,656) | 305,044 | (3,920,247) | (3,615,203) |
| **Cəmi** | **13,034,793** | **(11,729,061)** | **1,305,732** | **10,165,066** | **(9,706,672)** | **458,394** |

Yuxarıdakı cədvələ yalnız maliyyə aktivləri və öhdəlikləri daxildir. Təşkilat hesab edir ki, qeyri maliyyə aktivləri əhəmiyyətli valyuta riskinin yaranmasına gətirib çıxarmır.

***Faiz dərəcəsi riski.*** Təşkilat bazar faiz dərəcələrinin dəyişməsinin onun maliyyə vəziyyətinə və pul vəsaitlərinin hərəkətinə təsiri ilə əlaqədar riskə məruz qalır. Bu cür dəyişikliklər nəticəsində faiz marjaları arta bilər, lakin faiz dərəcələri üzrə gözlənilməyən dəyişikliklər baş verdiyi təqdirdə faiz marjaları həmçinin azala və ya zərərin yaranmasına səbəb ola bilər. İdarəetmə Komitəsi faiz dərəcələrinin dəyişməsinin qəbul edilə bilən səviyyəsi üzrə limitlər müəyyən edir və bu limitlərə hər gün nəzarət edir.

Bu cədvəldə Təşkilatın cəmi maliyyə aktiv və öhdəlikləri müqavilə üzrə faiz dərəcələrinin dəyişməsi tarixlərinə və ya ödəmə tarixlərinə görə (bunlardan hansı daha tez olarsa) təsnifləşdirilir.

| *Azərbaycan Manatı ilə* | **Tələb edilən və ya 1 ay ərzində** | **1-6 ay ərzində** | **6-12 ay ərzində** | **12 ay-5 il ərzində** | **Cəmi** |
|---|---|---|---|---|---|
| **31 dekabr 2020-ci il** | | | | | |
| Cəmi maliyyə aktivləri | 3,097,227 | 4,392,271 | 3,096,238 | 2,449,057 | **13,034,793** |
| Cəmi maliyyə öhdəlikləri | (867,515) | (1,267,846) | (3,865,004) | (5,728,696) | **(11,729,061)** |
| **31 dekabr 2020-ci il tarixinə likvidlik aralığı** | **2,229,712** | **3,124,425** | **(768,766)** | **(3,279,639)** | **1,305,732** |
| **31 dekabr 2020-ci il tarixinə yığılmış likvidlik aralığı** | **2,229,712** | **5,354,137** | **4,585,371** | **1,305,732** | |
| **31 dekabr 2019-cu il** | | | | | |
| Cəmi maliyyə aktivləri | 2,433,209 | 3,673,513 | 2,410,680 | 1,647,664 | **10,165,066** |
| Cəmi maliyyə öhdəlikləri | (1,015,383) | (3,160,016) | (2,990,667) | (2,540,606) | **(9,706,672)** |
| **31 dekabr 2019-cu il tarixinə likvidlik aralığı** | **1,417,826** | **513,497** | **(579,987)** | **(892,942)** | **458,394** |
| **31 dekabr 2019-cu il tarixinə yığılmış likvidlik aralığı** | **1,417,826** | **1,931,323** | **1,351,336** | **458,394** | **-** |

**21. Maliyyə Risklərinin İdarə Edilməsi (Davamı)**

Həssaslıq təhlili aparırkən Təşkilat aşağıdakı mülahizələri irəli sürür:

- Həssaslıq təhlili Təşkilatın bu açıqlamaları növbəti dəfə təqdim edəcəyi dövrə qədər müddət ərzində baş verə biləcək bütün dəyişiklikləri əks etdirir. Açıqlamaların növbəti təqdim olunma dövrü adətən növbəti illik hesabat dövrü ilə üst-üstə düşür.

Təşkilat bütün mümkün dəyişikliklərin deyil, yalnız müvafiq risk dəyişənində mümkün ola biləcək dəyişikliklərin limitləri çərçivəsində təsirini açıqlayır.

Təşkilat, AZN ilə ifadə edilmiş dəyişkən faizli aktiv və ya öhdəliklərə malik olmadığına görə onun mənfəəti AZN üzrə faiz dərəcələrindəki dəyişikliklərə məruz qalmır.

Valyuta məzənnələrindəki bu cür dəyişikliklərin Təşkilatın mənfəət və ya zərərinə təsirindən başqa, kapitala hər hansı təsiri yoxdur. Yuxarıda qeyd edilən risklər, yalnız Təşkilatın funksional valyutasından fərqli valyutalarda ifadə olunan pul qalıqları üçün hesablanmışdır.

Təşkilat öz maliyyə alətləri üzrə faiz dərəcələrinə nəzarət edir. Təşkilatın baş rəhbərliyi tərəfindən təhlil edilmiş hesabatlara əsaslanan faiz dərəcələri aşağıdakı cədvəldə göstərilir:

| | **2020-ci il** | | **2019-cu il** | |
|---|---|---|---|---|
| İllik %. | **AZN** | **ABŞ dolları** | **AZN** | **ABŞ dolları** |
| **Aktivlər** | | | | |
| Müştərilərə verilmiş kreditlər və avanslar | 1%-72% | - | 1%-72% | 39%-40% |
| **Öhdəliklər** | | | | |
| Müddətli borc vəsaitləri | 0%-17% | 6% | 2%-18% | 6% |
| Qiymətli kağızlar | 18% | 18% | 24% | 18% |

***Coğrafi konsentrasiya.*** 31 dekabr 2020-ci il və 31 dekabr 2019-cu il tarixlərinə Təşkilatın bütün maliyyə aktivləri və öhdəlikləri Azərbaycan Respublikasında yerləşmişdir.

***Digər risk konsentrasiyaları.*** Rəhbərlik, verilmiş kreditlərin ümumi məbləği xalis aktivlərin 10%-dən yuxarı olan borcalanlar haqqında məlumatları əks etdirən hesabatlara əsasən kredit riski üzrə konsentrasiyaya nəzarət edir və bu cür məlumatları açıqlayır. 31 dekabr 2020-ci il və 31 dekabr 2019-cu il tarixlərində Təşkilatın əhəmiyyətli risk konsentrasiyaları olmamışdır.

***Likvidlik riski***. Likvidlik riski Təşkilatın maliyyə öhdəliklərindən irəli gələn öhdəliklərin yerinə yetirilməsində Təşkilatın çətinliklərlə üzləşəcəyi riskdir. Buraya depozitlərin geri götürülməsi tələblərinə cavab vermək və faktiki olaraq ödəmə vaxtı çatmış maliyyə alətləri ilə üzrə digər maliyyə öhdəliklərini yerinə yetirmək üçün kifayət qədər vəsaitlərin mövcud olması aiddir. Likvidlik riski aktivlər üzrə əməliyyatların yerinə yetirilmə müddətinin öhdəliklər üzrə əməliyyatların ödəmə müddətləri ilə uzlaşmadığı hallarda ortaya çıxır. Təşkilatın Rəhbərliyinin fikrincə aktiv və öhdəliklərin ödəmə müddətlərinin və faiz dərəcələrinin uyğunluğu və ya nəzarət olunan uyğunsuzluğu maliyyə təşkilatlarının idarə olunması üçün əsas amillərdir.

Likvidlik risklərinin idarə edilməsi məqsədilə, Təşkilat aktiv/öhdəliklərin idarə edilməsi prosesinin bir hissəsi kimi bankların əməliyyatları üzrə gözlənilən gələcək pul vəsaitlərinin hərəkətinə hər gün nəzarət edir.

Təşkilatın likvidlik siyasəti aşağıdakılardan ibarətdir:

- Pul vəsaitləri hərəkətinin proqnozlaşdırılması və müxtəlif vaxt çərçivələrində likvidliyin təmin edilməsi üçün lazımi likvid aktivlərin səviyyəsinin saxlanması;
- Təşkilatın strateji məqsədlərinə uyğun maliyyə planının hazırlanması;
- Müxtəlif maliyyələşdirmə mənbələrinin saxlanması və beləliklə, Təşkilatın ölkədaxili və xarici mənbələrdən borc almaq imkanlarının artırılması;
- Yüksək likvidli və yüksək keyfiyyətli aktivlərin saxlanması;

## 21. Maliyyə Risklərinin İdarə Edilməsi (Davamı)

- Məhsul bazasının vaxt çərçivələrində mövcud maliyyələşdirmə mənbələrinə uyğunlaşdırılması;
- Aktiv və öhdəliklər strukturunun vaxt çərçivələrinədək daimi monitorinqi.

Təşkilat 31 dekabr 2020-ci il və 31 dekabr 2019-cu il tarixlərinə aşağıda göstərildiyi kimi gözlənilən ödəmə müddətlərinə və likvidlik aralığına nəzarət edir:

| *Azərbaycan Manatı ilə* | **Tələb edilən və ya 1 ay ərzində** | **1-6 ay ərzində** | **6-12 ay ərzində** | **12 ay-5 il ərzində** | **Cəmi** |
|---|---|---|---|---|---|
| **31 dekabr 2020-ci il** | | | | | |
| Cəmi maliyyə aktivləri | 3,296,515 | 5,370,882 | 4,094,499 | 3,629,799 | 16,391,695 |
| Cəmi maliyyə öhdəlikləri | (418,763) | (1,478,982) | (4,087,612) | (6,679,963) | (12,665,320) |
| **31 dekabr 2020-ci il tarixinə faiz dərəcələrinə həssaslıq üzrə likvidlik aralığı** | **2,877,752** | **3,891,900** | **6,887** | **(3,050,164)** | **3,726,375** |
| **31 dekabr 2020-ci il tarixinə yığılmış likvidlik aralığı** | **2,877,752** | **6,769,652** | **6,776,539** | **3,726,375** | |
| **31 dekabr 2019-cu il** | | | | | |
| Cəmi maliyyə aktivləri | 2,128,165 | 3,673,513 | 2,410,680 | 1,647,664 | **9,860,022** |
| Cəmi maliyyə öhdəlikləri | (1,066,745) | (3,160,016) | (2,990,667) | (2,540,606) | **(9,758,034)** |
| **31 dekabr 2019-cu il tarixinə faiz dərəcələrinə həssaslıq üzrə likvidlik aralığı** | **1,061,420** | **513,497** | **(579,987)** | **(892,942)** | **101,988** |
| **31 dekabr 2019-cu il tarixinə yığılmış likvidlik aralığı** | **1,061,420** | **1,574,917** | **994,930** | **101,988** | |

## 22. Kapitalın İdarə edilməsi

Kapitalın idarə olunmasında Təşkilatın məqsədi ARMB-nin kapitalın məbləği ilə bağlı müəyyən etdiyi tələblərə riayət edilməsini, Təşkilatın fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin və kapitalın adekvatlıq əmsalının 20% həcmində saxlanılması üçün kifayət qədər kapital bazasının saxlanılmasını təmin etməkdir.

Rəhbərlik hesab edir ki, təşkilat 2020-ci və 2019-cu illər ərzində yerli qanunvericiliyə uyğun hesablanmış kapitalın adekvatlığı əmsalına riayət etmişdir.

ARMB-nin məcmu kapital adekvatlığı əmsallarının hesablanması məqsədilə, 31 dekabr 2020-ci və 31 dekabr 2019-cu il tarixlərinə təşkilatın məcmu kapitalı uyğun olaraq 3,000,000 AZN və 1,000,000 AZN təşkil edir.

Rəhbərlik, borc verənlər tərəfindən tətbiq edilmiş xüsusi maliyyə şərtlərinə riayət edilməsi məqsədilə aparılan təhlil çərçivəsində kapitalın strukturunu müntəzəm olaraq təhlil edərək, maliyyə hesabatlarının digər komponentləri ilə bağlı kapital və onun strukturu üzrə riskləri nəzərdən keçirir.

Rəhbərlik hesab edir ki, təşkilat 2020-ci və 2019-cu illər ərzində kapitalın məbləği ilə bağlı bütün icbari qurumların tələblərinə riayət etmişdir.

## 23. Şərti Öhdəliklər

***Məhkəmə prosedurları.*** Vaxtaşırı olaraq və adi fəaliyyət gedişində Təşkilata qarşı irəli sürülə biləcək iddialarla əlaqədar, Təşkilatın Rəhbərliyi öz təxminlərinə, eləcə də daxili və kənar peşəkarların məsləhətlərinə əsasən hesab edir ki, bu iddialarla bağlı heç bir əhəmiyyətli zərər baş verməyəcəkdir və müvafiq olaraq hazırkı maliyyə hesabatlarında zərərlərin ödənilməsi üçün hər hansı ehtiyat yaradılmamışdır.

***Vergi qanunvericiliyi.*** Azərbaycanın vergi, valyuta və gömrük qanunvericiliyi müxtəlif şərhlərə və tez-tez baş verə bilən dəyişikliklərə məruz qalır. Təşkilatın əməliyyatlarına və fəaliyyətinə tətbiq edilən bu cür qanunvericiliyə dair Rəhbərliyin şərhlərinə müvafiq dövlət vergi orqanları tərəfindən etiraz edilə bilər.

Azərbaycan Respublikasında cərəyan edən son hadisələr göstərir ki, vergi orqanları qanunvericiliyi şərh edərkən və vergilərin məbləğini müəyyənləşdirərkən daha sərt mövqe nümayiş etdirə bilər və keçmişdə etiraz edilməyən əməliyyat və fəaliyyətlərə yenidən baxıla bilər. Bunun nəticəsində, Təşkilata qarşı böyük məbləğdə əlavə vergilər, cərimələr və faizlər hesablana bilər. Vergi orqanları tərəfindən vergi ödəyicisinin son üç təqvim ilindən çox olmayan fəaliyyəti yoxlanıla bilər. Qanunvericiliklə müəyyən olunmuş xüsusi hallarda yoxlama daha artıq dövrləri əhatə edə bilər.

***Kapital məsrəfləri ilə bağlı öhdəliklər.*** 31 dekabr 2020-ci və 31 dekabr 2019-cu il tarixlərində Təşkilatın binaları və avadanlıqları ilə əlaqədar kapital məsrəfləri ilə bağlı öhdəlikləri olmamışdır.

## 24. Maliyyə Alətlərinin Ədalətli Dəyəri

Ədalətli dəyər, məcburi satış və ya ləğv etmə halları istisna olmaqla, maraqlı tərəflər arasında cari əməliyyat zamanı maliyyə alətinin mübadilə edilə bildiyi məbləği əks etdirir və ən yaxşı olaraq aktiv bazar qiyməti ilə təsdiqlənir.

Maliyyə alətlərinin təxmin edilən ədalətli dəyəri Təşkilat tərəfindən mövcud bazar məlumatlarından (əgər mövcud olarsa) və müvafiq qiymətləndirmə metodlarından istifadə etməklə müəyyən edilmişdir. Lakin, təxmin edilən ədalətli dəyərin müəyyən edilməsi üçün bazar məlumatlarını şərh edərkən peşəkar mülahizələr irəli sürmək tələb edilir. Azərbaycan Respublikasında inkişaf etməkdə olan bazar iqtisadiyyatına xas xüsusiyyətlər müşahidə olunmaqdadır, lakin iqtisadi şərtlər maliyyə bazarlarında aktivliyin həcmini məhdudlaşdırmaqda davam edir. Bazar qiymətləri köhnəlmiş ola bilər və ya aşağı qiymətlərlə satışın dəyərini əks etdirə bilər və bu səbəbdən maliyyə alətlərinin ədalətli dəyərini əks etdirməyə bilər. Maliyyə alətlərinin ədalətli dəyərini müəyyən edərkən Rəhbərlik bütün mövcud bazar məlumatlarından istifadə edir.

***Pul vəsaitləri və onların ekvivalentləri.*** Pul vəsaitləri və onların ekvivalentləri təxminən onların cari ədalətli dəyərinə bərabər olan amortizasiya olunmuş maya dəyərində qeydə alınır.

***Amortizasiya olunmuş maya dəyərində qeydə alınan kreditlər və debitor vorcları.*** Dəyişən faiz dərəcəli maliyyə alətlərinin ədalətli dəyəri onların balans dəyərinə bərabərdir. Sabit faiz dərəcəli maliyyə alətlərinin təxmin edilən ədalətli dəyəri analoji kredit riskinə və ödəmə müddətinə malik yeni alətlər üçün mövcud faiz dərəcələrini tətbiq etməklə diskont edilmiş gələcək pul vəsaitlərinin hərəkəti metoduna əsaslanır. İstifadə edilmiş diskont dərəcələri qarşı tərəfin valyuta, alətin ödəmə müddəti və kredit riskindən asılıdır.

***Amortizasiya olunmuş maya dəyərində qeydə alınan öhdəliklər.*** Bazar qiymətləri mövcud olmayan sabit faiz dərəcəli və müəyyən edilmiş ödəmə müddətinə malik maliyyə alətlərinin ədalətli dəyəri, analoji kredit riskinə və yerdə qalan ödəmə müddətinə malik yeni alətlər üçün faiz dərəcələrini tətbiq etməklə diskont edilmiş pul vəsaitlərinin hərəkətinə əsaslanır. Tələb edildikdə və ya əvvəlcədən bildiriş təqdim edilməklə ödənilən öhdəliklərin ("tələb edilənədək ödənilən öhdəliklər") ədalətli dəyəri, öhdəliklərin ödənilməsinin tələb edildiyi birinci gündən başlayaraq diskont edilmiş ödənilən məbləğ kimi hesablanır.

## 24. Maliyyə Alətlərinin Ədalətli Dəyəri (Davamı)

Aşağıdakı cədvəl maliyyə alətlərini ədalətli dəyər iyerarxiyasının səviyyəsilə müəyyən edilən ədalətli dəyərlə təhlil edir:

| *Azərbaycan Manatı ilə* | 31 dekabr 2020-ci il<br>1-ci Səviyyə | 2-ci Səviyyə | 3-cü Səviyyə | Cəmi Ədalətli dəyəri | Cəmi Balans dəyəri |
|---|---|---|---|---|---|
| **Maliyyə aktivləri** | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 631,011 | - | - | **631,011** | **631,011** |
| Müştərilərə verilmiş kreditlər və avanslar | - | - | 12,403,782 | **12,035,402** | **12,403,782** |
| **Cəmi maliyyə aktivləri** | **631,011** | **-** | **12,403,782** | **12,666,413** | **13,034,793** |
| **Maliyyə öhdəlikləri** | | | | | |
| Müddətli borc öhdəlikləri | - | 5,470,176 | - | **5,470,176** | **5,470,176** |
| Qiymətli kağızlar | - | 4,948,612 | - | **4,948,612** | **4,948,612** |
| İcarə öhdəliyi | - | 817,200 | - | **817,200** | **817,200** |
| Digər öhdəlikləri | - | 493,073 | - | **493,073** | **493,073** |
| **Cəmi maliyyə öhdəlikləri** | **-** | **11,729,061** | **-** | **11,729,061** | **11,729,061** |

| *Azərbaycan Manatı ilə* | 31 dekabr 2019-cu il<br>1-ci Səviyyə | 2-ci Səviyyə | 3-cü Səviyyə | Cəmi Ədalətli dəyəri | Cəmi Balans dəyəri |
|---|---|---|---|---|---|
| **Maliyyə aktivləri** | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 811,166 | - | - | **811,166** | **811,166** |
| Müştərilərə verilmiş kreditlər və avanslar | - | - | 9,353,900 | **9,260,496** | **9,353,900** |
| **Cəmi maliyyə aktivləri** | **811,166** | **-** | **9,353,900** | **10,071,662** | **10,165,066** |
| **Maliyyə öhdəlikləri** | | | | | |
| Müddətli borc öhdəlikləri | - | - | 5,645,071 | **5,608,758** | **5,645,071** |
| Qiymətli kağızlar | - | - | 3,930,570 | **3,746,635** | **3,930,570** |
| Digər öhdəlikləri | - | - | 131,031 | **131,031** | **131,031** |
| **Cəmi maliyyə öhdəlikləri** | **-** | **-** | **9,706,672** | **9,538,957** | **9,706,672** |

## 25. Əlaqəli Tərəflərlə Əməliyyatlar

Tərəflər o zaman əlaqəli hesab olunur ki, onlar eyni qrupun nəzarəti altında olsun və ya onlardan biri digərinə nəzarət edə bilsin və yaxud maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı qərar qəbul edərkən digər tərəfə əhəmiyyətli təsir göstərə bilsin. Əlaqəli tərəflər arasındakı münasibətləri nəzərə alarkən həmin münasibətlərin hüquqi formasına deyil, iqtisadi məzmununa diqqət yetirilir.

31 dekabr 2020-ci və 31 dekabr 2019-cu il tarixlərinə əlaqəli tərəflərlə əməliyyatlar üzrə qalıqlar aşağıdakı kimi olmuşdur:

| | **31 dekabr 2020-ci il** | | **31 dekabr 2019-cu il** | |
|---|---|---|---|---|
| *Azərbaycan Manatı ilə* | **Əlaqəli şəxslərlə olan qalıqlar** | **Maliyyə hesabatlarında bu bənd üzrə cəmi məbləğ** | **Əlaqəli şəxslərlə olan qalıqlar** | **Maliyyə hesabatlarında bu bənd üzrə cəmi məbləğ** |
| **Qiymətli kağızlar:** | | **4,948,612** | | **3,930,570** |
| *-səhmdarlar və Təşkilat üzərində əhəmiyyətli təsiri və ya birgə nəzarəti olan müəssisələr* | 2,297,400 | | 3,930,570 | |

31 dekabr 2020-ci və 31 dekabr 2019-cu il tarixlərində tamamlanan illər üzrə əlaqəli tərəflərlə əməliyyatlardan yaranan gəlir və xərclər aşağıda göstərilir:

| | **31 dekabr 2020-ci il tirixinə bitən il** | | **31 dekabr 2019-cu il tirixinə bitən il** | |
|---|---|---|---|---|
| *Azərbaycan Manatı ilə* | **Əlaqəli şəxslərlə əməliyyatlar** | **Maliyyə hesabatlarında bu bənd üzrə cəmi məbləğ** | **Əlaqəli şəxslərlə əməliyyatlar** | **Maliyyə hesabatlarında bu bənd üzrə cəmi məbləğ** |
| **Qiymətli kağızlar üzrə faiz xərcləri:** | | **(793,250)** | | **(822,220)** |
| *-səhmdarlar və Təşkilat üzərində əhəmiyyətli təsiri və ya birgə nəzarəti olan müəssisələr* | (661,373) | | (822,220) | |

| | **31 dekabr 2020-ci il** | | **31 dekabr 2019-cu il** | |
|---|---|---|---|---|
| *Azərbaycan Manatı ilə* | **Əlaqəli şəxslərlə əməliyyatlar** | **Maliyyə hesabatlarında bu bənd üzrə cəmi məbləğ** | **Əlaqəli şəxslərlə əməliyyatlar** | **Maliyyə hesabatlarında bu bənd üzrə cəmi məbləğ** |
| **Müddətli borc öhdəlikləri:** | | **5,470,176** | | **5,645,071** |
| *-səhmdarlar və Təşkilat üzərində əhəmiyyətli təsiri və ya birgə nəzarəti olan müəssisələr* | 1,141,850 | | - | |

## 25. Əlaqəli Tərəflərlə Əməliyyatlar (Davamı)

| | 31 dekabr 2020-ci il tirixinə bitən il | | 31 dekabr 2019-cu il tirixinə bitən il | |
|---|---|---|---|---|
| *Azərbaycan Manatı ilə* | **Əlaqəli şəxslərlə əməliyyatlar** | **Maliyyə hesabatlarında bu bənd üzrə cəmi məbləğ** | **Əlaqəli şəxslərlə əməliyyatlar** | **Maliyyə hesabatlarında bu bənd üzrə cəmi məbləğ** |
| **Müddətli borc öhdəlikləri üzrə faiz xərcləri:** | | **(659,459)** | | **(573,840)** |
| *-səhmdarlar və Təşkilat üzərində əhəmiyyətli təsiri və ya birgə nəzarəti olan müəssisələr* | - | | (63,288) | |

Rəhbərliyə ödənişlər haqqında məlumat aşağıda təqdim edilir:

| *Azərbaycan Manatı ilə* | **31 dekabr 2020-ci il tirixinə bitən il** | **31 dekabr 2019-cu il tirixinə bitən il** |
|---|---|---|
| Əmək haqqı və mükafatlar | 109,412 | 92,159 |
| **Cəmi** | **109,412** | **92,159** |

31 dekabr 2020-ci və 31 dekabr 2019-cu tarixlərinə olan il ərzində, İdarə Heyəti üzvləri və aparıcı rəhbər işçilərin əmək haqları və bonuslardan ibarətdir.

## 26. Hesabat Dövründən Sonra Baş Vermiş Hadisələr

Hesabat dövründən sonra heç bir əhəmiyyətli hadisə baş verməmişdir.